# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## BMT heç nə bilmir



12

SƏS

№ 154 (7322)

28 avqust 2025-ci il.
Qiyməti 60 qəpik

## Yeni reallıqlar fonunda Azərbaycandan dünyaya mesajlar



2

**Prezident İlham Əliyev: "Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir"**

# Ölkə əhəmiyyətli tarixi abidələrimiz



10

## Uqandalı nazir "ASAN xidmət"də



6

## Özbəkistan-Azərbaycan strateji qardaşlığı möhkəmlənir



8

## Ağır çantalı yüngül uşaqlar



7

## Yaxın Şərqdə sülh yarana bilər



13

## "İT sahəsində kadrçatışmazlığı problemdir"



16

# Yeni reallıqlar fonunda Azərbaycandan dünyaya mesajlar

## Prezident İlham Əliyev: "Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir"



Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli dünyanın diqqətini özünə çəkdi, bir çox ölkələrdə öyrənilməyə başlandı və örnəyə çevrildi. Bu gün Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm layihələrin müəllifi və təşəbbüskarı kimi çıxış edir. Son 22 ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Azərbaycan müstəqillik əldə etdiyi dövrdən etibarən, bütün ölkələrlə qarşılıqlı tərəfdaşlıq çərçivəsində qurduğu münasibətlər böyük etimada əsaslanir. Dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasət Azərbaycanın milli maraqlarını qorumaq şərti ilə beynəlxalq aləmdə xarici ölkələrlə münasibətlərin inkişafı istiqamətində xoşməramlı niyyətinin təzahürüdür. Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əlaqələr ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsabəsində sərgilədiyi fikirlər bir daha Azərbaycan reallıqlarını və bugünün prizmasından baş verən hadisələrə yanaşmanı bir daha dünyaya mesaj olaraq ötürmüş oldu.

### "VAŞİNQTONDA BAŞ VERƏN HADİSƏLƏR, ƏSLİNDƏ, QARŞIDURMANIN VƏ GƏRGİNLİYİN SONU DEMƏKDİR"

Bu müsahibə ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistan və Azərbaycan arasında imzalanmış razılaşmadan sonrakı dövrə təsadüf etmiş oldu. Müsahibə əsasında həmin tarixi məsələ haqqında söhbət aparılıb, Azərbaycanın Şərq ilə Qərb arasındakı rolu haqqında danışılıb və digər məsələlərə toxunulub. Donald Trampın vasitəçilik səyləri ilə Ermənistan və Azərbaycan arasında imzalanmış tarixi razılaşmaya aid Azərbaycan Prezidenti İlham Əliyev təəssüratlarını ifadə edərək "Avqustun 8-də Vaşinqtonda baş verən hadisələr, əslində, qarşıdurmanın və gərginliyin sonu deməkdir. Uzun illərdir ki, biz Ermənistanla müharibə vəziyyətində idik. Məhz Ermənistan 1990-cı illərin əvvəlindən Azərbaycan ərazilərini işğal etmişdi. O zaman Azərbaycan çox zəif idi, ordumuz yox idi", - deyə bildirib. Tarixi dövrə nəzər salan Azərbaycan Prezidenti Ermənistanın Azərbaycan ərazilərini işğal etməkdə ona dəstək göstərən xarici tərəfdarların oluğunu da bildirib. Azərbaycan ərazisinin təxminən 20 faizi ermənilər tərəfindən işğal edildi. Bir milyon insan qaçqın və məcburi köçkünə çevrildi. "Azərbaycanın əhalisi o vaxt 8 milyon nəfər idi, onların bir milyonu yurd-yuvasından didərgin düşmüşdü", - deyə Prezident qeyd edib.

### "BİZ BEYNƏLXALQ SƏVİYYƏDƏ TANINMIŞ ƏRAZİLƏRİMİZİ AZAD ETDİK"

Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq.

"Birinci Qarabağ müharibəsi 1994-cü ildə atəşkəslə başa çatdı və biz 2020-ci ilə qədər davam edən sonsuz və gördüyümüz kimi, mənasız danışıqlar prosesində iştirak etdik. Bu proses 2020-ci ilədək davam etdi. 2020-ci ildə isə İkinci Qarabağ müharibəsi başladı və biz beynəlxalq səviyyədə tanınmış ərazilərimizi azad etdik", - deyə Azərbaycan Prezidenti bildirib.

Çağdaş dünyamızda tamamilə yeni bir dövrə qədəm qoyan Azərbaycan Böyük Qayıdış konsepsiyasını uğurla reallaşdırır. İşğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayıb. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız və Şərqi Zəngəzur yenidən qurulur. Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçərək böyük quruculuq işlərini həyata keçirməyə başlayıb. Azərbaycanın yaratdığı tarixi reallıqların məntiqi nəticəsi olaraq ölkəmiz yeni mərhələni yaşayır. Azərbaycanın öz suverenliyinin bərpası, Qarabağın azad olunması, eləcə də Qarabağdan separatizmin təmizlənməsi yeni imkanlar yaratmış oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. Müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılması ilə bağlı rastlaşılan problemlərdən də danışıb. Dövlətimizin başçısı bildirib ki, bu işlərə əsas iki manеə ərazilərin minalanması və Qarabağda infrastrukturun tamamilə məhv edilməsidir. "Hazırda infrastrukturun inkişafı üzrə artıq yekun mərhələyə yaxınlaşmışıq. Düşünürəm ki, bütün infrastruktur layihələri bəlkə də iki-üç il ərzində tam hazır olacaq", - deyə Prezident əlavə edib.

### "AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN AĞ EVDƏ PREZİDENT TRAMPIN İŞTİRAKI İLƏ BU SƏNƏDİ PARAFLAMASI MÜHARİBƏNİN BAŞA ÇATDIĞINI GÖSTƏRİR"

Əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsi həm regional, həm də qlobal miqyasda strateji əhəmiyyət daşıyan çoxsaylı mövzuları əhatə edir. Dövlətimizin başçısının müsahibəsində yer alan fikirlər, təkcə Azərbaycanın mövqelərinin ifadəsi baxımından deyil, həm də beynəlxalq aləmə ünvanlanan siyasi mesajlar kimi liqqətdədir.

Regionda yeni reallıqların müəllifi olan Azərbaycan Prezidenti İlham Əliyev sülh və təhlükəsizlik fonunda siyasət həyata keçirərək iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri gerçəkləşdirərək beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir. "Təqribən beş il bundan əvvəl 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ədaləti, beynəlxalq hüququ və öz ləyaqətini bərpa etdi, torpaqlarını geri qaytardı. Bundan sonra prosesdə müəyyən bir boşluq yarandı, çünki o zaman vasitəçilər artıq hansı addımı atmalı olduqlarını bilmirdilər və məhz Azərbaycan Ermənistanla sülh prosesinə başlamağı təklif etdi. Yenə də məhz biz danışıqlar formatının təşəbbüskarı olduq. Biz sülh sazişinin layihəsini təqdim etdik. Əslində, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan-Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır", - deyə dövlət başçımız bildirib. Cənab Prezident onu da diqqətə çəkib ki, danışıqlar bir neçə il davam etdi və nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı: "Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur.

Ardı Səh. 3

## Prezident İlham Əliyev moldovalı həmkarını Müstəqillik Günü münasibətilə təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev moldovalı həmkarı Maya Sanduya təbrik məktubu ünvanlayıb.Ttəbrikdə deyilir:**

"Hörmətli xanım Prezident,

Moldova Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.Biz Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk.Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafeləri naminə birgə səylərimizlə Azərbaycan-Moldova əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunmasına, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran fəaliyyətimizin daha da inkişafına nail ola bilərik.Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Moldova xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Yeni reallıqlar fonunda Azərbaycandan dünyaya mesajlar

## Prezident İlham Əliyev: "Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir"

Əvvəli Səh. 2

Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur. Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq. Lakin fakt budur ki, Azərbaycan və Ermənistanın Ağ Evdə Prezident Trampın iştirakı ilə bu sənədi paraflaması müharibənin başa çatdığını göstərir. Bu, mərhələlərlə 30 ildən artıq davam edən müharibənin sonudur və həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar açır".

### "İMZALANMIŞ SƏNƏDDƏN GERİ ADDIM ATILARSA, BU, ERMƏNİSTAN İLƏ ABŞ ARASINDAKI MÜNASİBƏTLƏRİ CİDDİ ŞƏKİLDƏ PİSLƏŞDİRƏR"

"Siz Ermənistanın konstitusiyasına edilməli düzəlişi qeyd etdiniz. Hazırda sülh haqqında bəhs etdiyimiz zaman düşünürəm ki, əgər Ermənistanda hər hansı daxili siyasi dəyişiklik baş verərsə, bu, həmin





prosesə xələl gətirəcəkmi?" sualını cavablandıran Prezident İlham Əliyev bildirib ki, Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Gələn yay Ermənistanda parlament seçkilərinin keçiriləcəyini bildirən Cənab Prezident onların yeni konstitusiya layihəsi üzərində işlədiklərini diqqətə çəkib: "Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər. Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-a aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər. Beləliklə, bütün beynəlxalq ictimaiyyət bu hadisəni müsbət qarşıladı və razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Onlar bundan nə qazanacaqlar? Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir".

### "ZƏNGƏZUR DƏHLİZİ QİTƏLƏRİ BİRLƏŞDİRƏN VACİB NƏQLİYYAT ƏLAQƏSİ OLACAQ"

Prezident İlham Əliyev müsahibəsində Zəngəzur dəhlizi məsələsini gündəmə gətirərək, onun yalnız Azərbaycanın deyil, bütövlükdə regionun strateji maraqlarına cavab verdiyini vurğulayıb. Dövlətimizin başçısının müsahibəsində də qeyd etdiyi kimi, bu dəhlizin açılması nəinki Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında birbaşa əlaqəni təmin edəcək, həm də beynəlxalq ticarət yollarının genişlənməsinə zəmin yaradacaq. Əslində, Zəngəzur dəhlizi konsepsiyası təkcə milli layihə deyil, Avropa ilə Asiyanı birləşdirən Orta Dəhlizin ayrılmaz hissəsi kimi çıxış edir.

"Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq", - deyən Prezident bildirib ki, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana: "Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək". Azərbaycan Prezidenti onu da vurğulayıb ki, Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək. "Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Tiicarət, nəqliyyat, xüsusilə yük daşımaları, sərmayələr, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur. Azərbaycanda nəqliyyat-logistika infrastrukturunun qurulması və inkişaf etdirilməsi istiqamətində indiyədək həyata keçirilmiş iirimiqyaslı layihələr böyük əhəmiyyət kəsb edir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi töhfələr də xüsusilə qeyd edilməlidir.

Regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyətli layihələr həyata keçirilir. Azərbaycan dövləti reallıq prizmasından çıxış edərək, dünya dövlətləri ilə səmərəli əməkdaşlığın davamlılığına önəm verir. Əlbəttə ki, Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti ilə mürəkkəb situasiyalarda düzgün seçim etməsi diqqətdən kənarda qalmır. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Böyük Qayıdış strategiyası:
## dirçələn Qarabağ və Şərqi Zəngəzur

30 ilə yaxın zaman məsafəsində ermənilərin işğalı altında olan torpaqlarımız bu gün həsrətində yaşayan insanlar üçün ziyarətgaha çevrilib, əzəli sakinlərimiz bu yerlərdə yurd salırlar. Bu məkanlarda erməni cinayətkarlarının törətdikləri hər kəsə bəllidir. Cəhənnəm qoxan əməllərin izləri müqəddəs torpaqlarımızda rast olunsa da, Böyük Qayıdış strategiyası reallaşdıqca bu ərazilər Azərbaycanın ən gözəl guşələrindən birinə çevrilir. Təbii ki, tutduğu vəzifədən, sənət və peşəsindən asılı olmayaraq, bura üz tutan insanlar üçün nə qədər böyük, müqəddəs hiss olsa da, erməni vandallığı, təcavüzü təəssüf, nifrət hissi oyadır. Çirkin niyyət, çirkin əməl, səpilən erməni toxumları hətta qəbiristanlıqların belə dağıdılmasına səbəb olmuşdur. Bu əlbəttə ki, insanlığa sığmayan əməllərdir. Azərbaycan vətəndaşları ilə yanaşı, dünyanın müxtəlif ölkələrindən bura üz tutan insanlar heyrət dolu baxışlarını gizlədə bilmirlər. Azərbaycana dost, qardaş olan dövlətlərin nümayəndələrinin işğaldan azad olunan torpaqlarımıza səfəri onları riqqətə gətirir. Hətta 44 günlük Vətən müharibəsi dövründə müharibə gedən ərazilərimizə xarici ölkələri təmsil edən KİV nümayəndələrinin ezam olunması zamanı da erməni vəhşiliyinin müharibə getməyən əraziləri də bombardman etməsi, mülki insanları atəşə tutması onların gözü önündə baş vermişdir. Ermənilərin bu çirkin əməlləri dünya mediasında geniş şəkildə işıqlandırılmışdır.









### DAŞ YADDAŞIMIZIN HƏYAT GERÇƏKLİKLƏRİ

Bu gün yaşadığımız həyat gerçəkliklərinin hər biri tarixdir. Bir yazının, oçerkin, hekayənin, povestin, romanın mövzusudur. Zaman-zaman oxunacaq əsərlərin əsas ideyasına çevriləcək həyat gerçəklikləridir. Ədəbiyyat həyatın güzgüsüdür. Tarix nə qədər saxtalaşdırılsa da, ədəbiyyata köçəcək hadisələr zamanın daş yaddaşına hopur və nəsillər üçün bir tapıntıya çevrilir. İctimai-siyasi hadisələrin gedişi zaman çərçivəsində həllini tapmış olur. Xatırladaq ki, Ermənistan Silahlı Qüvvələri Bərdə və Tərtər şəhərlərini də "Smerç" raketindən atəşə tutmuş, bu da mülki vətəndaşların həlak olması, xeyli sayda insanın yaralanması ilə nəticələnmişdir. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın bir çox ölkələrindən ölkəmizə ezam olunmuş KİV nümayəndələrinin gözü qarşısında baş verdi. Əlbəttə ki, infrastruktura da ziyan dəymişdir. Bütün bu və ya digər əməllər işğalçı Ermənistanın silahlı qüvvələrinin 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd əməllərdir.

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏKİ MƏĞLUBİYYƏT ONLAR ÜÇÜN DƏRS OLMALIDIR"

Azərbaycan Vətən müharibəsində onlara yetərincə dərs verdi və 44 gün ərzində işğalçıları öz torpaqlarından qovdu. Tarixi ədalət bərpa olundu. Azərbaycan ermənilərə elə bir dərs verdi ki, bunu tarix boyu unutmayacaqlar. 2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən təslim oldu. Məlumdur ki, ermənilər işğal dövründə 67 məsciddən 65-ni yerlə-yeksan etmiş, qalan iki məsciddə isə heyvan - inək, donuz saxlamışlar. Azərbaycanın 44 gün ərzində apardığı əks-hücum əməliyyatları Ermənistan üçün acı sonluqla yekunlaşdı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır. Tarixi ədalət bərpa edilib. "Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik" - deyə Azərbaycan Prezidenti bildirib. Bu gün artıq müharibənin başa çatmasından beş ilə yaxın zaman ötüb. Azərbaycan öz sülhsevər siyasətini davam etdirir. Cənab Prezident çıxışlarında dəfələrlə bildirmişdir ki, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd göstərsə, onun başını bir daha əzəcəyik: "Əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır".

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması bir daha dünyaya Azərbaycanın gücünü, ən əsası da güclü Lideri olduğunu göstərmiş oldu. Tarixi Qələbəmizin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Ərazilərdə təhlükəsiz yaşayışı, dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini, dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq və digər məsələləri reallaşdırmaq məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, dövlət başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi.

### AĞALIDAN BAŞLANAN KÖÇ KARVANI

Ermənilər tərəfindən xarabazarlığa çevrilən ərazilərimizdə böyük quruculuq işləri aparılır. Bu gün aparılan təmir-bərpa işləri, infrastrukturun qurulması, böyük tikintilər uğurla davam edir. Beynəlxalq hava limanlarının istifadəyə verilməsi əlbəttə ki, görülən işlərin sürətinin bir nümunəsidir. Həyata keçirilən layihələr işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. "Ağıllı kənd" konsepsiyası uğurla reallaşır. Bu gün Ağalı kəndi bir nümunədir. Öz yurduna dönmək həsrəti ilə yaşayan insanların bir qismi rahat bir şəraitdə, gözəl bir məkanda öz əzəli torpaqlarına qovuşdular.

Bildiyimiz kimi, Ermənistan tərəfindən təkcə Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, çamaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Bildiyimiz kimi, Laçın rayonu işğaldan azad olunandan iki ay ötməmiş burada Su Elektrik Stansiyası istismara verildi. Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Cənab Prezident bunun azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyası olduğunu və çox böyük əhəmiyyətə, böyük rəmzi mənaya malik olduğunu bildirib.

Azərbaycan bu gün ərazilərimizdə dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə planlı şəkildə başlanılıb. Azad olunmuş ərazilərimizi minalardan və partlamamış sursatlardan təmizlənməsi prosesi də davam edir. Azərbaycanın işğaldan azad olunan ərazilərinə səfər edənlər əlbəttə ki, bu ərazilərdə aparılan abadlıq və quruculuq işlərinə heyrətlənir.

***Zümrüd BAYRAMOVA***

# "The Jerusalem Post" Vaşinqton görüşündən və Zəngəzur dəhlizindən yazıb


THE JERUSALEM POST CONFERENCES ISRAEL NEWS WORLD NEWS MIDDLE EAST BUSINESS & INNOVATION DEFENSE & TECH OPINION

Armenia-Azerbaijan's agreement and the Zangezur Corridor's role in regional peace - opinion

The Trump Route for International Peace and Prosperity gives Washington the opportunity to counter Russian and Iranian influence in the South Caucasus.

***İsrailin məşhur və nüfuzlu "The Jerusalem Post" jurnalında "Ermənistan ilə Azərbaycan arasında saziş və Zəngəzur dəhlizinin regional sülhdə rolu" adlı məqalə dərc olunub. SİA xəbər verir ki, məqalənin müəllifi İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik leytenantı, Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı Mordexay Kedardır.***

"Ermənistan ilə Azərbaycan arasında saziş və Zəngəzur dəhlizinin regional sülhdə rolu" sərlövhəli məqalədə TRIPP ("Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu") yolu sayəsində ABŞ-ın bölgədə geosiyasi tarazlığı dəyişə biləcək xüsusi nəqliyyat dəhlizinin inkişafı üçün 99 illik hüquq əldə etdiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, TRIPP Azərbaycanı onun Naxçıvan eksklavı ilə birləşdirən Zəngəzur dəhlizinin 32-43 kilometrlik hissəsini əhatə edir. Multimodal infrastruktur, o cümlədən dəmir yolu xətləri, neft və qaz kəmərləri, fiber-optik kabellər və yolları özündə birləşdirəcək TRIPP Rusiya və İranın təsirini balanslaşdıraraq Cənubi Qafqaza bir növ strateji dayağı təmin edir.

Məqalədə, həmçinin bildirilib ki, ATƏT-in Minsk qrupunun buraxılması ABŞ-ın vasitəçilik və infrastruktur siyasətində yeni rolunu vurğulayır və Amerika diplomatları sazişi regional sabitlik amili və iqtisadi artımın katalizatoru kimi görürlər.

Yazıda İranın öz sərhədləri yaxınlığında ABŞ-ın və ya NATO-nun potensial mövcudluğu ilə bağlı təhlükəsizlik narahatlıqlarını əsas gətirərək layihəyə qarşı çıxdığına diqqət çəkilib və bir sıra başqa vacib məqamlar vurğulanıb.

Məqaləni linkə keçid etməklə ətraflı oxumaq mümkündür.


INTERNATIONAL

Geopolitical realignment in the South Caucasus after the Washington summit

AWANI Columnist
18/08/2025 | 10:15 MYT

Azerbaijan and Armenia signed a US-brokered peace agreement on August 8, during a meeting with US President Donald Trump that would boost bilateral economic ties after decades of conflict. - REUTERS/Filepic

THE August 2025 Washington summit between the leaders of Azerbaijan and Armenia, mediated by U.S. President Donald Trump, marks a pivotal moment in South Caucasus geopolitics, signaling a

# Malayziya mediasında Vaşinqton sammiti haqqında məqalə yayımlanıb

Malayziyanın aparıcı media qurumlarından olan "Astro Awani"də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Vüsal Quliyevin "Vaşinqton sammitindən sonra Cənubi Qafqazda geosiyasi yenidənqurma" sərlövhəli məqaləsi dərc edilib. SİA xəbər verir ki, məqalədə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında Vaşinqtonda keçirilən sammitin Cənubi Qafqazın geosiyasətində mühüm hadisə olduğu və regional güc dinamikasının əsaslı şəkildə yenidən qurulmasına təsir göstərdiyi qeyd olunur. Bu xüsusda, Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutunu (TRIPP) yaratmaqla ABŞ-ın regionda strateji tərəfdaşa çevrildiyi və bu vəziyyətin regional güc balansını dəyişdirdiyi bildirilir. Dəmir yolları, enerji boru kəmərləri və fiber-optik xətləri əhatə edəcək TRIPP-in Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və oradan da Türkiyə ilə birləşdirəcəyi, bu dəhlizin sülh çərçivəsi daxilində geoiqtisadi ambisiyaları özündə cəmləşdirən həm fiziki əlaqə, həm də strateji rıçaq olduğu göstərilir.

Eyni zamanda, yazıda Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə məlumat verilərək, Azərbaycanın 2020-ci və 2023-cü illərdə apardığı hərbi əməliyyatlar nəticəsində Ermənistanın işğalına son qoyulduğu və bunun regionda təsir balansını dəyişərək müxtəlif aktorlar, o cümlədən ABŞ üçün praqmatik geoiqtisadi maraqlara əsaslanan yeni diplomatik yanaşma ilə addım atmağa yol açdığı vurğulanır. Bununla yanaşı, məqalədə sammitin nəticələrindən biri kimi Azərbaycana münasibətdə ABŞ ilə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair 907-ci düzəlişin uzun müddətdir tətbiq etdiyi məhdudiyyətlərin Prezident Tramp tərəfindən ləğvinin olduğu göstərilir. Yazıda sammitin daha bir əlamətdar nəticəsi kimi Azərbaycanın və Ermənistanın ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı birgə müraciəti göstərilir.

Məqalədə region ölkələrinin sülh razılaşması ilə bağlı mövqeyinə toxunularaq, Türkiyənin bu razılaşmanı alqışladığı və adıçəkilən marşrutun Türkiyə üzərindən Avropa və Asiya arasında quru ticarətini sürətləndirəcək Orta Dəhlizin strateji hissəsi kimi qiymətləndirildiyi göstərilir. Qeyd olunub ki, Rusiya Xarici İşlər Nazirliyi Cənubi Qafqazda sabitliyə doğru istənilən addımı alqışladığını bildirsə də, bu ölkənin siyasi şərhçiləri Ermənistanı strateji xəyanətdə günahlandırır və razılaşmanın, o cümlədən TRIPP-in Moskvanın regionda əsas vasitəçilik roluna təsir etdiyini vurğulayırlar. Məqalədə İranın sülh razılaşmasını açıq şəkildə alqışladığı, lakin bu dəhlizin onun strateji tranzit roluna xələl gətirə biləcəyi ilə bağlı narahatlığını ifadə etdiyi bildirilir.

Məqalənin yekununda Vaşinqton razılaşmasının həm ABŞ diplomatiyası üçün əlamətdar hadisə olduğu, həm də Cənubi Qafqaz geosiyasətində yeni səhifə açdığı vurğulanır.

# Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi xarici siyasətin ən məhsuldar mərhələlərindən biridir

***Azərbaycanın Qoşulmama Hərəkatında (QH) sədrliyi ölkənin xarici siyasət fəaliyyətinin ən məhsuldar və yaddaqalan mərhələlərindən biri olub. SİA xəbər verir ki, bunu Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Qoşulmama Hərəkatının (QH) Gənclər Təşkilatının üzvləri ilə görüşdə bildirib.***



Onun sözlərinə görə, sədrlik dövrü Azərbaycana Qoşulmama Hərəkatında beynəlxalq arenada rolunun gücləndirilməsinə və onun prinsiplərinin təşviqinə əhəmiyyətli töhfə vermək imkanı yaradıb.

Y.Rəfiyev vurğulayıb ki, rəsmi sədrlik müddətinin başa çatmasına baxmayaraq, Azərbaycan "Troyka sədrliyi"nin bir hissəsi olaraq təşkilatın fəaliyyətində fəal iştirak etməyə davam edir.

"Ölkəmiz üçün bu, həqiqətən unikal və unudulmaz təcrübə olub. Hətta bu gün, "üçlük"də olduğumuz zaman, biz sədrlik dövründə irəli sürülən təşəbbüsləri dəstəkləməyə və iştirakçı dövlətlər arasında geniş əks-səda doğuran ideyaları təşviq etməyə səmimi şəkildə şadıq", - nazir müavini qeyd edib.

# Azərbaycan və Uqanda XİN-ləri arasında siyasi məsləhətləşmələr keçirilib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Uqandanın xarici işlər üzrə dövlət naziri Con Mulimba arasında görüş keçirilib. Bu barədə SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.



Bildirilib ki, görüşdə Azərbaycan-Uqanda münasibətlərinin siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, humanitar və s. aspektləri, regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Afrika İttifaqı çərçivəsində əməkdaşlıq məsələləri, habelə regional məsələlər müzakirə olunub.

Azərbaycan və Uqanda arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə qarşılıqlı təbrikləri çatdıran tərəflər, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin mövcudluğunu məmnunluqla qeyd ediblər.

Ölkənin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində irəli sürülən təşəbbüslərin həyata keçirilməsi, o cümlədən Hərəkatın Gənclər Təşkilatının əsasının qoyulması zamanı sərgilənən birgə əməkdaşlığın əhəmiyyəti qeyd edilib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə intensiv xarakter alan münasibətlərin Uqandanın Hərəkata sədrliyi zamanı da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov həmçinin müqabil tərəfə ölkənin alternativ enerji mənbələrinin inkişafı və istifadəsinin genişləndirilməsi üzrə təşəbbüs və planları barədə ətraflı məlumat verib, bərpaolunan enerji sahəsinin əməkdaşlığın inkişaf etdirilməsi üzrə potensial istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb.

Dövlət xidmətlərinin göstərilməsi sahəsində Azərbaycanın "ASAN Xidmət" modelinin Uqandada uğurlu tətbiqinin iki ölkə arasında təcrübə mübadiləsinin faydalılığının göstəricisi olduğu vurğulanıb.

Ceyhun Bayramov, eyni zamanda, avqustun 8-də baş tutan Vaşinqton görüşünün nəticələri barədə qarşı tərəfi məlumatlandırıb, bu tarixi görüş çərçivəsində "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətninin paraflandığını, o cümlədən keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk Qrupu və əlaqəli strukturların bağlanması ilə əlaqədar birgə müraciətin ünvanlandığını diqqətə çatdırıb.

Con Mulimba Vaşinqton görüşü çərçivəsində Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı tarixi razılaşmaların əldə edilməsi münasibətilə öz təbriklərini çatdırıb, prosesin uğurla nəticələnməsinə dair ümidvarlıq ifadə edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycanla Uqanda arasında siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Yalçın Rəfiyev, Uqanda tərəfindən isə xarici işlər üzrə dövlət naziri Con Mulimba rəhbərlik edib.

# Uqandalı nazir "ASAN xidmət"də









**_Ölkəmizdə səfərdə olan Uqanda Respublikasının xarici işlər üzrə dövlət naziri Con Mulimbanın rəhbərlik etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, qonaqları salamlayan Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və dövlət xidmətlərində tətbiq olunan innovativ həllər barədə məlumat verib. Hazırda Azərbaycanın intellektual brendinin 30-dan çox ölkəyə ixrac edildiyi diqqətə çatdırılıb._**

Görüş zamanı Uqandada "ASAN xidmət" təcrübəsi əsasında yaradılmış Xidmət Mərkəzlərinin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində aparılan işlər müzakirə edilib.

Uqandalı nazir ölkəsindəki Xidmət Mərkəzlərinin fəaliyyəti nəticəsində vətəndaş məmnunluğunun artdığını qeyd edərək Azərbaycan tərəfinə göstərilən dəstəyə görə təşəkkürünü çatdırıb. Həmçinin o, vətəndaşların dövlət xidmətlərinə əlçatanlığını təmin edən Səyyar ASAN xidmət təcrübəsinin də Uqandada tətbiqində maraqlı olduğunu bildirib.

Xatırladaq ki, hazırda Uqandada "ASAN xidmət" təcrübəsi əsasında 6 mərkəz fəaliyyət göstərir.

Nümayəndə heyətinə "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin və "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar da ətraflı məlumat verilib.

Gənc həkim-rezidentlərimiz bilik və bacarıqlarını artıraraq peşəkarlıq yolunda inamla addımlayırlar

Anesteziologiya, Əməliyyatxana və Reanimasiya şöbəsinin ağır xəstələrinə həkim-rezidentlər fədakarlıqla qayğı göstərir, onların sağalması üçün gecə-gündüz mübarizə aparır və hər gün öz bilik və bacarıqlarını təkmilləşdirirlər. 2024-cü ilin oktyabrında rezidentura təhsilinə başlayan gənc həkim-rezidentlərimiz bu gün artıq möhkəm bilik və bacarıq təməli ilə fəaliyyətlərini inamla davam edirlər.

Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim, t.e.d. Bəxtiyar Musayevin və Anesteziologiya, Əməliyyatxana və Reanimasiya şöbəsinin rəsi Dr.Tural Sadıqov, anestezioloq-reanimatoloqlar: Dr.Mehdi Əliyev, Dr.Rəşad Nəsirli, Dr. Könül Həsənova, Dr.Şahin Mazanov, Dr.Xəyal Məmmədov və Dr.Sevda Quliyevanın rəhbərliyi, yuxarı kurs rezidentlərin dəstəyi ilə il öz təcrübələrini zənginləşdirir və gələcəyin yüksəkixtisaslı həkimləri kimi formalaşırlar.

Fədakar anestezioloq-reanimatoloqlarımıza və yuxarı kurs rezidentlərimizə gənc həkimlərə göstərdikləri dəyərli mentorluğa görə ürəkdən təşəkkür edirik. Birinci ilini uğurla tamamlayan gənc rezidentlərimizi təbrik edir və qarşıdakı illərdə daha böyük uğurlar arzulayırıq!

# "Yalan şəxsiyyətin formalaşmasına təsir edir"

*AYDINLIQ GƏTİRİLDİ*





"Uşaqlarda yalan danışmaq ümumiyyətlə bir davranış pozuntusudur. Bu, həm səbəb, həm də nəticə ola bilər. Davranış pozuntusunun əsas səbəbləri arasında uşaqlarda özünü təsdiq etmə ehtiyacı, öz güvən problemi, qorxu, ailədə və cəmiyyətdə öz yerini tapa bilməmək, özündən və ətrafdan narazılıq kimi faktorlar var". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib.

Onun sözlərinə görə, bu zaman uşaq yalan danışmaqla bir növ özünü müdafiə edir: "Yalanların da müxtəlif növləri olur. Belə deyək, "axı yalanlar" və "təhlükəli siqnal" yalanlar var. Bəzi yalanlar uşağın psixologiyasına ciddi təsir edə, şəxsiyyətinin formalaşmasında pozuntulara səbəb ola bilər və vərdiş halına gələndə artıq xarakterə çevrilir. Nəticə etibarilə həyat tərzinə çevrilə bilər. Məsələn, uşaq etdiyi bir şeyi inkar edir, olmayan hadisələr danışır, təhlükəli və ya şübhə doğura biləcək fikirlər yayır, inadla yalanının üstündə durur. Əgər bu davranış vaxtında düzəldilməzsə, uşaq elə bu şəkildə böyüyür. Heç kim deməsin ki, uşaq əvvəllər yalan danışmırdı, sonra başladı. Əslində, o yalanlar kiçik yaşlarda başlayıb, sadəcə diqqətdən yayınmış olub. Yalan danışmaq 3-4 yaşından başlayır.

Axı yalanlar dediyimiz yalanları nağıl terapiyası ilə və digər psixoloji üsullarla aradan qaldırmaq mümkündür. Məsələn, "mən eləmədim" kimi ifadələr bu yaşlarda başlayır. Yalan uydurmalarla bağlı uşağın reallıqla üzləşdirilməsi vacibdir. Nağıllar, nümunələr vasitəsilə uşağa düzgün davranış modeli təqdim edilməlidir. Əgər uşaq yalana əl atırsa, deməli, sizin gözünüzdə daha yaxşı görünmək istəyir. O halda ona daha çox diqqət göstərilməli və onun tərifə, müsbət münasibətə ehtiyacı qarşılanmalıdır ki, yalana ehtiyac qalmasın.

Tərifin də, cəzanın da yeri və vaxtı olmalıdır. Əgər uşaq düzgün davranış göstərirsə, bu zaman onu tərifləmək lazımdır ki, yalana ehtiyac duymasın. Əgər artıq yalan həyat tərzinə çevrilibsə və idarəolunmaz hala gəlibsə, bu zaman mütləq mütəxəssisə müraciət edilməli, uşaq diaqnostika olunmalı və uyğun psixoloji yardım göstərilməlidir".

*Günel Fərzəliyeva*

# Qarabağın biomüxtəlifliyi və ekoloji inkişafı ilə bağlı beynəlxalq konfrans keçiriləcək





Azərbaycanda oktyabrın 29-da "İşğaldan azad olunmuş torpaqlarda biomüxtəlifliyin qorunması və dayanıqlı ekoloji inkişafı" adlı beynəlxalq konfrans keçiriləcək. SİA xəbər verir ki, konfrans Dendrologiya İnstitutu, Elm və Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb Elmləri Bölməsi, Rusiyanın Baş Botanika Bağı, Amerika Massaçusets Universiteti Kənd Təsərrüfatı Kolleci, Qazaxıstan Botanika və Fitointroduksiya İnstitutu, Qazaxıstan Manaş Kozıbayev adına Şimali Qazaxıstan Universiteti, Özbəkistan Alfarangus Universiteti, Pakistan OAK Consulting Organization, Türkiyə Erzurum Texniki Universitetinin təşkilatçılığı ilə baş tutacaq.

Konfransın əsas məqsədi Qarabağ iqtisadi rayonu biomüxtəlifliyinin müasir vəziyyətinin öyrənilməsi, onun qorunması, saxlanması, inkişafı, nadir və nəsli kəsilməkdə olan növlərin qiymətləndirilməsi və bərpasıdır. Həmçinin antropogen təsirlərin biomüxtəlifliyə göstərdiyi təsirlərin elmi əsaslarla aradan qaldırılması istiqamətində tədqiqatlar aparılması, həmçinin regionda dayanıqlı ekoloji inkişafı təmin edən elmi tədqiqatların nəticələrinin tətbiqidir.



Eləcə də bu sahənin elm adamları ilə təcrübə mübadiləsinin həyata keçirilməsi üçün elmi platformanı formalaşdırmaqdan ibarətdir.

# Ağır çantalı yüngül uşaqlar

***Ölkəmizdə məktəb yaşı 6-dır. Lakin 1 il öncədən, yəni hələ 5 yaşları olanda artıq məktəbəqədər hazırlıq qruplarına gedən balacalar məktəb çantaları ilə bu vaxt tanış olurlar. Mütəxəssislər xəbərdarlıq edir ki, məktəb çantalarının ağırlığı məktəbə gedən uşaqlar üçün olduqca çoxdur. Belə ağır çantalar uşaqlarda ağır bel-onurğa problemlərinə, "skolioz" adlandırılan xəstəliyə səbəb olur.***



## Övladınızın çəkisi çantası ilə uyğun gəlirmi?

Skolioz xəstəliyi insan onurğasının C şəklini alması deməkdir. Skolioz xəstəliyinin başlanğıcı da məhz kiçik yaşda onurğanın zədə alması, ağırlıq səbəbi ilə boy qısalığı, görünüş problemləri, ağciyər problemləri ilə başlayır.

Uşaqlarda bel ağrılarının ən birinci səbəbi



ağır məktəbli çantaları ilə əlaqədardır. Uşağın çəkisinin 10-15 faizindən çox olan məktəb çantasının daşınması bel, çiyin və əllərdə ağrılara səbəb olur. 30 kq çəkisi olan bir uşağın maksimum götürə biləcəyi çanta ağırlığı 5,5 kq olmalıdır. Məktəb dövründə uşaqlar çantalarında kitab-dəftər, ləvazimat - ümumiyyətlə, çoxlu tədris materialları daşımalı olurlar. Üstəlik, hər dərsə əlavə iş dəftərləri, məktəbdən sonra hazırlıq kursları, məşğələləri varsa, çantalara əlavə kitablar, idman ləvazimatları, ayaqqabılar və başqa ləvazimatlar da qoyulur. Bu da məktəbli çantalarının çəkisinin daha da artmasına səbəb olur.

## Qalın qayışlı çanta alın

Ağır çantalardan istifadə etdiyinə görə uşaqlar bu ağırlıqları tarazlaşdırmaq üçün irəliyə doğru əyilir və bu da kürək nahiyəsində kifoz və lordoz dediyimiz deformasiyalara səbəb ola bilər. Ağır çantanın təzyiqindən çiyinlərdə ağrı və çanta asqı-qayışlarının çiyinləri sıxması səbəbi ilə qollarda və əllərdə uyuşma meydana gələ bilər. Ağır məktəb çantaları bel, boyun və çiyin ağrılarına, xroniki yorğunluğa və əzələ spazmlarına səbəb ola bilər. Bu hal da öz növbəsində uşağın məktəbə getmək istəməməsinə və xroniki ağrılardan əziyyət çəkməsinə səbəb ola bilər.

Məktəbli çantası, çantanın ümumi çəkisinə təsir etməmək üçün mümkün qədər yüngül materialdan hazırlanmalı, asqı-qayışları qalın olmalı, qayışın qalın hissəsi isə çiyinə uyğun olaraq tənzimlənməlidir. Beləliklə, çiyinə düşən yük bel tərəfindən də dəstəklənir. Məktəbli çantasının qayışları bərabər məsafədə və hər iki çiyində bərabər səviyyədə olmalıdır.

Bəzən valideynlər uşaqlarının ağır çanta daşımaması üçün təkərli çantalar seçir, lakin təkərli məktəb çantası təkərsiz və tutacaqsız çantadan daha ağır olur. Əgər uşaq məktəbdə pilləkan qalxmalı və enməli olursa çantasını əlinə almalı olur, o zaman təkərli çantaya üstünlük verilməməlidir, çünki bu, əlavə yük yaradacaq.

Uşaqların məktəb çantalarından istifadə edərkən etdikləri səhvlərdən biri də çantanı bir çiyinində daşımaqdır. Çantanın qayışlarından yalnız birini istifadə edərək bir çiyində daşınması daha çox yükə səbəb ola bilər və daşındığı tərəfdə daha çox gərginlik yaradır. Bunun qarşısını almaq üçün çantaları hər iki çiyin qayışı ilə tam kürək nahiyəsində daşımaq lazımdır. Bundan əlavə, çantadakı bölmələrdən səmərəli istifadə edilməli və daha ağır kitablar və ya materiallar çantanın arxa hissəsinə yaxın yerləşdirilməlidir ki, çəki paylansın və balanslı çanta yaransın.

## Çanta düzgün seçilməsə...

Məktəbli çantasının asqı və ya qayışlarının uzun və ensiz olması bütün ağırlığın belə yönlənməsinə səbəb olur. Bədənin ağırlıq mərkəzinin arxaya sürüşməsi nəticəsində bel əzələlərində həddindən artıq yükə səbəb olur və ağrı meydana gəlir. Çanta ağır olsa və tək tərəfli çiyin asqısı istifadə edilsə əzələlər çətinlik çəkəcək, xüsusilə boyun bir tərəfə əyiləcək. Bir çiyində daşınan çantalar onurğada sağ və ya sola əyilmələr (skolioz) kimi onurğa problemlərinə səbəb ola bilər.

Çantadakı çiyin asqılarının geniş və yumşaq olması çiyində yükün bərabər paylanmasına kömək edir, dar və sərt çiyin asqıları əzələnin müəyyən nöqtələrinə ağırlığın yüklənməsinə səbəb olacaq. Çantanın çiyin asqılarının incə, ensiz, uzun və çantanın ağır olması sinirlərə təzyiq edəcək. Bunun da nəticəsində əl və qola gedən sinirlər zədə alacaq.

Ağır çanta daşıma, yaxud da ağır çantanın tək çiyində daşınması zamanı boyun əzələlərində gərginlik, boyun arxasında ağrı və damar dartılmaları, baş ağrısı yaradacaq. Ağır və qeyri-düzgün şəkildə kürək çantası daşıyan və pillələri qalxıb-enən uşaqlarda ayaq ağrıları daha çox olur.

***Lalə Mehralı***

**KÜNCDƏN BAXIŞ**

# Doğum azalır, demoqrafik böhrana doğru gedirik: nə etməli?

Əhalinin qocalması dövrümüzün aktual problemlərindən biridir. İnkişaf etmiş ölkələr əhalinin qocalması ilə digərlərinə nisbətən daha tez qarşılaşdılar. İndi bu, dünya miqyasında bir tendensiyaya çevrilib. Keyfiyyətli tibbi xidmət sayəsində insanlar daha uzun yaşamağa başladı, uşaq ölümü azaldı, amma doğum nisbəti getdikcə azaldı. Getdikcə daha çox ailə uşaq sahibi olmağı gecikdirir, ilk növbədə, daha yaxşı yaşayışını təmin etmək istəyir. Çoxuşaqlı ailələr nadir hala çevrilib. "Bir uşaq üçün layiqli həyat təmin etmək daha asandır" deyə bir çox gənc belə düşünür və təəssüf ki, burada o qədər də haqsız deyillər. Hazırda, 2-3 uşağı saxlayıb böyütmək əksəriyyət üçün çox çətindir. Ona görə də əksər müasir ailələr 1 uşaqdan ibarət olur.



Əhalinin artmasını təmin etmək üçün ölkədə doğum səviyyəsi hər ailəyə görə 3 uşaq olmalıdır. İnkişaf etmiş ölkələrdə miqrasiya bu işə öz töhfəsini verir- gənclər daha yaxşı həyat üçün bu ölkələrə gedir, yaşlılar isə qalır inkişaf etməmiş ölkələrdə qalır.

BMT-nin araşdırmasına görə, dünyada 65 və daha yuxarı yaşda olan insanların sayı yaxın 3 onillikdə 2 dəfə artaraq 2050-ci ildə 1,6 milyarda çatacaq. Avropada bu proses ən çox İtaliya, İspaniya, Yunanıstan və Portuqaliyaya təsir edəcək. Honq-Konq, Cənubi Koreya və Yaponiya kimi inkişaf etmiş Asiya ölkələrində 65 yaşdan yuxarı əhali təxminən 40% təşkil edəcək.

Bəs Azərbaycanı nə gözləyir? Ölkəmizdə, proqnozlara görə, yaşlı əhalinin xüsusi çəkisi də xeyli artacaq. Artıq qocalma prosesi müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkədə əhalinin 15 faizi 60 yaşdan yuxarıdır. Getdikcə əhalinin tərkibində uşaq və gənclərin xüsusi çəkisi azalır. Son 5-6 il ərzində uşaqların sayı 4%, əhalinin ümumi tərkibindəki payı isə 6% azalıb.

Uzun müddət Azərbaycanda doğum səviyyəsi ilə bağlı problem yox idi və çoxları hesab edirdi ki, bunu stimullaşdırmağa ehtiyac yoxdur. Amma indi statistika narahatlıq yaratmağa başlayıb.

Beynəlxalq təşkilatların proqnozları və müşahidə etdiyimiz tendensiyalar vəziyyətin ciddiliyini açıq şəkildə göstərir. Artıq biruşaqlı ailə modelinə keçirik, iki-üç uşaqlı ailələr getdikcə azalır.

Əhali qocalır və bu, təkcə mənəvi-psixoloji problem deyil, həm də sosial-iqtisadi problemdir. Yaşlı əhalinin xüsusi çəkisinin artması dövlətin üzərinə əlavə maliyyə yükü, əmək qabiliyyətli vətəndaşların sayının azalması, hər 1000 işçiyə düşən pensiyaçıların sayının artması, əmək haqqının azalması, sosial xərclərin artmasıdır.

Bəs nə etməli? Əhalinin qocalmasına qarşı mübarizədə doğum səviyyəsinin stimullaşdırılması əsas tədbirlərdən biridir. Əksər ölkələr öz əhalisini və uşaq və gənclərin nisbətini artırmaq üçün bir çox tədbirlər görürlər. Buraya uşaq üçün aylıq müavinət, ev, torpaq sahəsi, avtomobil də daxil olmaqla çoxsaylı təşviq və güzəştlər daxildir.

Norveçdə uşaq dünyaya gələnə qədər işləmiş yeni analar bir il maaşının 80%-ni və ya 42 həftəlik tam maaş alırlar. Atalar üçün atalıq məzuniyyəti də var. Uzun müddətdir ki, "Bir ailə-bir uşaq" siyasəti yürüdən Çində indi 2-ci və sonrakı uşaqlar üçün nağd ödənişlər var. Rusiyada doğum nisbəti ilə bağlı çətin vəziyyət var. Bunu ailələrin, əsasən, mənzil şəraitinin yaxşılaşdırılmasına xərclədiyi analıq kapitalı ilə və aylıq uşaqpulu verməklə düzəltməyə çalışırlar.

Uzun illərdir ki, biz jurnalistlər, sosioloqlar, eləcə də bəzi deputatlar, ictimai xadimlər Azərbaycanda uşaq müavinətlərinin bərpası ilə bağlı hökumətə və parlamentə təkliflər verirk. Bunun üçün kifayət qədər maliyyə və iqtisadi imkanlar var. Amma hələlik, bu istiqamətdə heç bir irəliləyiş yoxdur.

Hazırda ölkəmizdə uşaq doğulanda 500 manat birdəfəlik müavinət verilir. Bu, kifayət deyil, çünki həmin vəsait uşağın doğum xərcini belə ödəmir. Hesab edirəm ki, ilkin mərhələdə hər uşağa ayda ən azı 100 manat, doğuşa görə isə 5 min manat verilə bilər. Heç olmasa, aylıq gəliri adambaşına 500 manatdan aşağı olan ailələr üçün bunu etmək olardı.

Ən azı çoxuşaqlılıq meyarını 6 uşaqdan 3 uşağa endirməli və 3 və daha çox usage olanlara social müavinət verilməlidir. Hazırda aztəminatlı ailələrə ünvanlı sosial yardım ödənilir. Amma buna baxmayaraq, qeyri-qənaətbəxş şəraitdə yaşayan uşaqlar var. Uşaq müavinəti daha məqsədyönlü və şəffaf olardı.

Etiraf etmək lazımdır ki, ailələrdə uşaqların sayının kəskin azalması təkcə sosial-iqtisadi problemlərlə bağlı deyil. Varlı ailələrin əksəriyyətinin bir və ya iki uşaqdan çoxu yoxdur. Həyat tərzi, mənəvi dəyərlər, psixologiya- hər şey dəyişib. Çoxları artıq özlərini uşaqlara həsr etmək istəmirlər. Bir sıra başqa obyektiv səbəblər də var: nikahların sayı azalıb, sonsuzluq artıb. Bütün bu səbəblər bizi demoqrafik fəlakətə sürükləyir. İndi tədbir görməsək, sonra gec olacaq.

***Elçin Bayramlı***

# Şəhid media nümayəndələrinin medalları ailələrinə təqdim edilib

Azərbaycan Respublikasının müdafiə nazirinin müvafiq əmrinə əsasən, şəhidlərimiz - jurnalist Məhərrəm İbrahimov və operator Sirac Abışovun "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı (ölümündən sonra) avqustun 27-də Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində onların ailə üzvlərinə təqdim edilib. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib.Bildirilib ki, bir qrup media mənsublarının da iştirak etdiyi tədbirdə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov çıxış edərək 44 günlük Vətən müharibəsində şəhidlərimizin göstərdikləri qəhrəmanlıq və şücaətlərdən söz açıb, onların əziz xatirəsinin daim ehtiramla yad olunduğunu vurğulayıb.Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən törədilmiş vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə həmin bölgələrə ezam olunmuş, 2021-ci ilin iyununda xidməti vəzifələrini yerinə yetirərkən Kəlbəcər rayonu ərazisində minaya düşərək şəhid olan jurnalist M.İbrahimov və operator S.Abışov xalqımızın yaddaşında daim fədakarlıq nümunəsi kimi qalacaq.Hər iki şəhidimizin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də bütün şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.Qeyd edək ki, ordu quruculuğu sahəsində aparılan uğurlu islahatların ictimaiyyətə çatdırılmasında, hərbi-vətənpərvərliyin təbliğində və dezinformasiyalara qarşı mübarizədə Müdafiə Nazirliyi ilə birgə əməkdaşlıqda fərqlənən bir qrup media nümayəndələri də tədbirdə təltif ediliblər.

# Özbəkistan-Azərbaycan strateji qardaşlığı möhkəmlənir



***Özbəkistan bu gün "Özbəkistan - 2030" strategiyası çərçivəsində kompleks islahatlar yolu ilə inamla irəliləyir. Bu genişmiqyaslı proqram əhalinin həyat keyfiyyətinin hərtərəfli yüksəldilməsi, milli iqtisadiyyatın möhkəmləndirilməsi, turizm potensialının artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəlmişdir. Strategiyanın uğurla həyata keçirilməsi artıq öz bəhrəsini verməklə, ölkənin həm regionda, həm də beynəlxalq aləmdə mövqelərini gücləndirir.***

İslahatların ən vacib istiqamətlərindən biri vətəndaşların rifahının artırılmasıdır. Təkcə 2024-cü ildə əhalinin real gəlirləri 6,3 faiz artmış, yoxsulluq səviyyəsi isə 2020-ci illə müqayisədə 17 faizdən 11 faizədək azalmışdır.

İqtisadi artım davamlı xarakter almışdır. 2024-cü ilin yekunlarına görə, Özbəkistanın ümumi daxili məhsulu 6,1 faiz artaraq Mərkəzi Asiyanın ən yüksək göstəricilərindən biri olmuşdur. Rəsmi məlumatlara görə, 2024-cü ildə Özbəkistanın əsas kapitalına yönəldilmiş investisiyaların ümumi həcmi 38,36 milyard ABŞ dolları ekvivalentində olmuşdur. Bununla yanaşı, ötən il birbaşa xarici investisiyalar 53,6 faiz artaraq 11,9 milyard ABŞ dolları təşkil etmişdir. İqtisadiyyatın real sektorunda 250 mindən çox yeni iş yeri yaradılmışdır.

Turizmin inkişafına xüsusi diqqət yetirilir. Belə ki, keçən il Özbəkistanı turizm məqsədilə 8,2 milyon xarici vətəndaş ziyarət etmiş, bu isə pandemiyadan sonrakı rekord göstəricidir. Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə Özbəkistana 6,6 milyon xarici turist səfər etmişdir, yəni 24,2 faiz artım qeydə alınmışdır. Həmçinin, 2024-cü ildə ölkə vətəndaşları 22,7 milyon daxili turizm səfəri həyata keçirmişlər.



2025-ci ilin əvvəlinə Özbəkistanda ümumi tutumu 161 min çarpayılıq 6,1 mindən çox yerləşmə müəssisəsi (otellər, hostellər və qonaq evləri) fəaliyyət göstərir. Ölkədə 2,5 mindən çox otel mövcuddur ki, onların da 18 faizi 4-5 ulduzlu obyektlərdir. Bütün bunlar müstəqil qiymətləndirmələrlə də təsdiqlənir. Ümumdünya Turizm Təşkilatına görə Özbəkistan Avrasiyada ən sürətlə inkişaf edən turizm sektoruna malik ölkələr siyahısına daxil olmuşdur.

Daxili islahatlar fonunda xarici siyasət vektoru xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi Özbəkistanın praqmatizm və şəffaflığa əsaslanan yeni diplomatiyasının parlaq nümunələrindəndir. 2024-cü ildə Azərbaycan ilə Özbəkistan arasında ticarət dövriyyəsi tarixi maksimum səviyyəyə yüksəlməklə 250,0 milyon dollardan çox olmuşdur. Hökumətlərarası Birgə Komissiya yaradılmış, tekstil sənayesi, kimya və logistika sahələrində birgə layihələr həyata keçirilməkdədir. Azərbaycan biznesi Nəvai və Cizzak vilayətlərində investisiyalara böyük maraq göstərir.

Beləliklə, sürətlə dəyişən geosiyasi şərait və regional həmrəyliyə artan tələbat fonunda Özbəkistan ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq daha möhkəm və məzmunlu xarakter alır. Dövlətlərimiz qarşılıqlı hörmət, praqmatizm və qardaşlıq həmrəyliyi əsasında əməkdaşlığın necə qurula biləcəyini nümayiş etdirir. Üstəlik, ölkələrimiz dayanıqlılıq, açıqlıq və sülhə yönəlmiş regional əməkdaşlığın nümunələrindən birinə çevrilirlər.

Bu ilin iyul ayının əvvəlində Bakıda keçirilən Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclası iki ölkə münasibətlərinin inkişafında yeni mərhələ olmuşdur. Özbəkistan Respublikasının Prezidenti cənab Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri qarşılıqlı etimad və strateji dostəyin mühüm simvoludur.

Özbəkistanın dövlət başçısı xüsusi vurğulamışdır ki, səfər və Şura iclası iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının otuzuncu ildönümündə keçirilir. Bu hadisə yalnız simvolik deyil, həm də dərin praktik məna daşıyır. Belə ki, Daşkənd ilə Bakı arasında siyasi, iqtisadi, humanitar və nəqliyyat əlaqələri görünməmiş məzmun almış, ölkəmizin Prezidentinin qeyd etdiyi kimi, "münasibətlərimiz tarix boyunca heç vaxt bugünkü kimi yüksək səviyyədə olmamışdır".

Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsi, infrastrukturun inkişafı və investisiya cəlbediciliyinin artırılması strategiyasını ardıcıl həyata keçirməklə Azərbaycanın dayanıqlı iqtisadi inkişafında əsas rol oynamışdır. Bu səylər sayəsində ölkə Avrasiyanın mühüm enerji və logistika mərkəzinə çevrilmişdir. Cənab İlham Əliyevin uzaqgörən xarici siyasət kursu əsas tərəfdaşlarla, o cümlədən Özbəkistanla daha yaxın münasibətlərə xidmət edir.

Azərbaycanın iqtisadi uğurları Özbəkistanla enerji, nəqliyyat, kənd təsərrüfatı və ticarət sahələrində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Bu əlaqələrin dərinləşməsi iki ölkənin iqtisadiyyatlarının vahid məkan daxilində inteqrasiyası üçün yeni imkanlar açır.



Birincisi, Özbəkistan ilə Azərbaycanı ortaq məqsədlər, baxışlar və istəklər birləşdirir. Xalqlarımız hər zaman qardaşlıq və etimad münasibətləri üçün əsas olan tarix, oxşar dəyərlər, dil və mədəniyyətlə bir-birinə bağlıdır.

Bununla əlaqədar olaraq mənim üçün prinsipial əhəmiyyət daşıyan bir məqamı ayrıca vurğulamaq istərdim. Azərbaycanda yüksək səviyyədə təşkil olunmuş beynəlxalq tədbirlərdə iştirakım sayəsində mənə iki dəfə işğaldan azad edilmiş ərazilərə səfər etmək nəsib olmuşdur. Qədim və simvolik Şuşa şəhərinə səfər mənim üçün yaddaqalan hadisə idi. Azərbaycan xalqı üçün dərin tarixi, mədəni və mənəvi əhəmiyyətə malik Şuşa bu gün yenidən mədəniyyət və dirçəliş mərkəzi statusunu bərpa edir. Mən də öz növbəmdə fürsətdən istifadə edərək Azərbaycan xalqının qələbə sevincinə qoşulur, partiyamız adından Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə nəticələnən böyük zəfəri tarixi ədalətin təntənəsi kimi qiymətləndirirəm.

Mən şəxsən yerindəcə əmin oldum ki, cənab İlham Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan keçmiş münaqişə bölgəsi də daxil olmaqla, regionda mehriban qonşuluq, əməkdaşlıq və tərəqqi mühiti yaratmağa çalışır. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin və infrastruktur layihələrinin icra sürətini yüksək qiymətləndirməklə xüsusi qeyd etmək istərdim ki, Azərbaycanın ortaya qoyduğu nümunə yaradıcı yanaşma və milli birlik modelidir.



İkincisi, qarşılıqlı siyasi etimad mütəmadi dövlətlərarası əlaqələrlə möhkəmlənir. Son aylarda Xivədə ilk Parlamentlərarası Forum, Əndicanda 60-dan çox sazişin imzalanması ilə nəticələnən Rektorlar Forumu, eləcə də Bakıda Hökumətlərarası Komissiyanın iclası və Regionlar Forumu baş tutmuşdur. Bütün bunlar tərəfdaşlıq proseslərinə mərkəzi hakimiyyətdən regionlara və universitetlərə qədər ən müxtəlif səviyyələrdə cəlb olunmanın göstəricisidir.

Üçüncüsü, iqtisadi gündəm Ali Dövlətlərarası Şuranın ikinci iclasının əsas mövzusu olmuşdur. Təsadüfi deyil ki, 2025-ci il iki ölkə arasında İqtisadi Əməkdaşlıq İli elan edilmişdir.

Hazırda Azərbaycan və Özbəkistanda təxminən 300 birgə müəssisə fəaliyyət göstərir. Birgə investisiya layihələrinin portfeli 4 milyard dollara çatmışdır və bu, yalnız başlanğıcdır. Yaxın illərdə ticarət və investisiya həcmlərinin illik 1 milyard dollara çatdırılması planlaşdırılır.

Sözügedən iclasda sənaye, infrastruktur, kənd təsərrüfatı, turizm, səhiyyə və maliyyə sahələrində layihələri əhatə edən xüsusi Əməkdaşlıq Proqramı təqdim edilmişdir. Eyni zamanda, birgə investisiya şirkətinin fəaliyyətinin fəallaşdırılması, Sahibkarlar Şurasının yaradılması, Sənaye və İqtisadi Zonalar Forumunun təşkili təşəbbüsləri dəstəklənmişdir. Bu, tərəflərin yalnız ənənəvi ticarətə deyil, əlavə dəyər zəncirlərinin, yüksək texnologiyalı sektorların və dayanıqlı inkişafın kompleks şəkildə inkişafına sadiqliyini göstərir.

İmzalanan sənədlər arasında "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında 2025-2027-ci illər üzrə sənaye əməkdaşlığı Proqramı", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın gələcək inkişafı üzrə Praktiki Fəaliyyət Planı ("Yol xəritəsi")" və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə kompleks tədbirlərin və layihələrin formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi üzrə Fəaliyyət Planı" mühüm əhəmiyyət kəsb edir.

Görüşün ən önəmli nailiyyətlərindən biri Özbəkistanın Avropaya "yaşıl" elektrik enerjisinin ixracı üzrə birgə layihənin icrasının sürətləndirilməsinə dair razılaşma olmuşdur. Bu layihə Mərkəzi Asiya və Cənubi Qafqazda "yaşıl keçid" strategiyasının daha geniş hissəsi ola, perspektivdə regionun enerji müstəqilliyini və ekoloji təhlükəsizliyini gücləndirə bilər.

Digər önəmli məqam Transxəzər Nəqliyyat Dəhlizində (Orta Dəhliz) nəqliyyat əlaqələrinin inkişafıdır. 2025-ci ilin əvvəlindən başlayaraq Özbəkistan və Azərbaycan yükdaşımalara "e-Permit" elektron icazə sistemi tətbiq etmiş, bunun nəticəsində illik daşımaların həcmi 1 milyon tonu keçmişdir. Orta Dəhliz inkişaf etdikcə Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən strateji arteriyaya çevrilir. Gələcəkdə bu marşrut geosiyasi cəhətdən qeyri-sabit ərazilərdən yan keçməklə Şərqlə Qərb arasında logistikanın əsas elementinə çevrilə bilər.

Bundan başqa, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında gəmiçilik və gəmiqayırma sahələrində əməkdaşlıq haqqında Niyyət Protokolu"nun imzalanması da Xəzər dənizində dəniz logistikasının genişləndirilməsi üçün yeni imkanlar açır.

Humanitar sahədə imzalanan sənədlər göstərir ki, Daşkənd və Bakı arasındakı strateji tərəfdaşlıq yalnız praqmatik maraqları deyil, həm də dayanıqlı və inklüziv inkişaf məsələlərini əhatə edir. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrası ilə bağlı 2025-2027-ci illər üzrə Tədbirlər Planı" da imzalanmışdır.

Bütün bunlar BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə iki ölkənin səyləri kontekstində xüsusilə vacibdir. Belə olan halda biz ekoloji problemlər, təhsil, sosial dəstəyin də diqqət mərkəzində olduğu sosial siyasətdə regional liderlik nümunəsini görürük.

Mədəni əlaqələr də güclənir. Belə ki, Azərbaycanın "Şirvan" sazçı folklor qrupunun Xivədə keçirilən IV Beynəlxalq Baxşı Sənəti Festivalında "Qran-pri" mükafatını qazanması əlamətdar hadisədir. 2025-ci ildə gənclər və mədəniyyət mübadiləsi sahəsində bir sıra birgə tədbirlər də həyata keçirilir.

Bakıda "Özbəkistan" parkının tikintisinə başlanması və Özbəkistan Respublikası Səfirliyinin yeni binasının açılışı mühüm rəmzi addımlardır. Buna cavab olaraq Özbəkistanda "Azərbaycan" parkının və "Sea Breeze" turizm kompleksinin tikintisinə hazırlıq gedir. Bu təşəbbüslər mədəni və diplomatik dəyərə malikdir, qardaş xalqa hörməti və iki xalqın mənəvi yaxınlığını möhkəmləndirmək istəyini nümayiş etdirir.

Beynəlxalq və regional gündəmdə ölkələrin liderləri həmrəyliyi və beynəlxalq platformalarda bir-birinə dəstəyi gücləndirmək niyyətlərini təsdiqləmişlər. Özbəkistan ardıcıl olaraq bütün münaqişələrin və mübahisəli məsələlərin yalnız sülh yolu ilə, diplomatiya əsasında həllinə tərəfdardır. Azərbaycanın bu yanaşmanı dəstəkləməsi iki ölkənin beynəlxalq təşkilatlarda ortaq səsini gücləndirir.

Müasir dünyada təkcə dövlətlərarası deyil, həm də partiyalararası münasibətlərin xüsusi əhəmiyyət kəsb etdiyi bir dövrdə Özbəkistan və Azərbaycan yetkin, strateji cəhətdən düşünülmüş qardaşlıq münasibətlərinin nümunəsini nümayiş etdirirlər. Bu kontekstdə xüsusi olaraq vurğulamaq istərdik ki, 2022-ci ilin noyabr ayında cənab İlham Əliyevin partiyamızın nümayəndə heyətini qəbul etməsi yüksək dərəcədə rəmzi məna daşıyan bir hadisə idi. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin bu diqqəti UzLiDeP tarixində ən yaddaqalan səhifələrdən biri kimi həkk olunmuşdur.

Şəxsən mənim üçün bu qəbul iki dost ölkə arasında yüksək etimad və qarşılıqlı anlaşmanın növbəti parlaq təsdiqi, həmçinin Azərbaycan tərəfinin Özbəkistanla tərəfdaşlığın inkişafına xüsusi diqqət yetirməsinin sübutu oldu. Azərbaycan dövlətinin lideri Yeni Azərbaycan Partiyası ilə UzLiDeP arasında qarşılıqlı fəaliyyətin yüksək səmərəliliyini vurğulayaraq, qarşılıqlı səfərlərin davam etdirilməsi, dialoqun dərinləşdirilməsi, əməkdaşlıq platformalarının genişləndirilməsi və siyasi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd etdi.

İki ölkə liderlərinin siyasi iradəsinin bariz nəticəsi 2024-cü ildə Azərbaycanda böyük bir sənədin - Yeni Azərbaycan Partiyası ilə Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalanması oldu. Bu sənədin imzalanması əldə olunmuş razılaşmaları möhkəmləndirməklə yanaşı, bərabərlik, qarşılıqlı dəstək və ortaq hədəflərə əsaslanan partiyalararası əməkdaşlığın yeni mərhələsinə start verdi. Bu sənəd "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"nin müddəalarının həyata keçirilməsinin bir nümunəsinə çevrildi.

Bu gün sözügedən memorandum çərçivəsində nümayəndə heyətlərinin qarşılıqlı səfərləri uğurla həyata keçirilir, təşkilati-ideoloji xarakterli aktual məsələlər ətrafında partiyalararası müzakirələr, partiya quruculuğu və seçicilərlə iş sahəsində qabaqcıl təcrübə mübadiləsi aparılır.

Beləliklə, YAP ilə UzLiDeP arasında partiyalararası əlaqələr Azərbaycan-Özbəkistan strateji dialoqunun dərinləşməsi üçün mühüm mexanizmə çevrilir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə xidmət edir, bütövlükdə, regional sabitlik, inkişaf və tərəqqiyə dəyərli töhfə verir.

Bu, açıq şəkildə göstərir ki, ölkə daxilində aparılan islahatlar onun beynəlxalq nüfuzu ilə birbaşa bağlıdır. Partiyalarımız institutları inkişaf etdirməklə, iqtisadiyyatı gücləndirməklə və humanitar əlaqələri genişləndirməklə nəinki daxili problemləri həll edir, həm də mehriban qonşuluq və regional sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verirlər. Bu baxımdan, imzalanmış Memorandum sadəcə bir sənəd deyil, həm də Özbəkistan ilə Azərbaycan arasında strateji əlaqələr fonunda praktik bir yol nümunəsinə çevrilmiş, öz səmərəliliyini və həyati əhəmiyyətini nümayiş etdirmişdir.

***Aktam Xaitov***
***Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası***
***Siyasi Şurası İcra Komitəsinin Sədri***



# Ölkə əhəmiyyətli tarixi abidələrimiz

Dünya xalqları arasında özünəməxsus yeri olan Azərbaycan bəşəri ideyaları, adət-ənənələri, maddi və mənəvi xəzinəsi ilə zəngin irsə sahibdir. Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılmış Heydər Əliyev Fondunun fəaliyyətə başladığı zamandan bu günə qədər həyata keçirdiyi layihələrin, tədbirlərin hər biri Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın hər bir layihəsi Azərbaycanın işıqlı sabahına əvəzsiz töhfədir. Xatırladaq ki, Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri sırasında ölkədaxili dini abidələrin bərpa və təmiri önəmli yerlərdən birini tutur.



Əlbəttə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə verdiyi töhfələr əhəmiyyət kəsb edir. Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Gəncə İmamzadə kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib. Xüsusi olaraq vurğulayaq ki, paytaxtımızda Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Bakı şəhəri Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinə, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin bariz nümunəsidir. Yeni Günəşlidə daha müasir və geniş məscid kompleksinin olması məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsinə imkan verir.









## ŞƏKİ XAN MƏSCİDİ KOMPLEKSİ

Bu səpkidə keçirilən layihələrin davamı olaraq Şəki Xan məscidi kompleksində də əsaslı bərpa işləri aparılıb. Ölkə əhəmiyyətli abidə siyahısında olan məscid xanlıqlar dövrünə (1745-1750-ci illər) aid edilir. Tarixi məlumatlara və üzərində qeyd edilən kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn xan tərəfindən inşa olunub. Məscidin yanında yerləşən qəbiristanlıqdakı əsas 13 qəbir xan nəslinin nümayəndələrinə aiddir. Mənbələrdə də qeyd olunduğu kimi, qəbiristanlıqda yalnız xan nəslinin nümayəndələri dəfn olunduğundan "Xan qəbiristanlığı" adı verilib. Məscidin 21 metrlik minarəsi bişmiş kərpic və əhəng məhlulundan istifadə edilməklə inşa olunub. Burada eyvana qalxmaq üçün dairəvi pilləkən var. Məscidin ön fasadında olan tağvari eyvan isə məscidə xüsusi gözəllik verir. Məscidin bərpası layihəsi 1981-ci ildə hazırlansa da, sonrakı illərdə heç bir iş görülməmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Ərazidə yerləşən tikililər - məscidin əsas binası və minarə, yardımçı tikililər, kompleks ərazisinin hasarı və orada yerləşən məzarlıq skan edilib, məscidin 3D modeli hazırlanıb. Məscid kompleksinin əldə olunan ilkin görüntüsü əsasında aparılan bərpa işləri zamanı iqlim təsirinə görə, yararsız hala düşən kərpiclər yenilər ilə əvəzlənib, yeri bişmiş kərpiclə yenidən döşənib. Minarədə olan kərpiclər eroziyadan mühafizə etmək üçün xüsusi materiallarla izolyasiya qatı yaradılıb. Eyni zamanda, məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Məscidin həyətindəki köhnə su hovuzunun əvəzinə yeni hovuz inşa olunub. Həyətdəki Xan çinarları və digər ağaclar ətrafında mühafizə zonası yaradılıb. Məsciddə bərpa işləri çərçivəsində mehrabın altı qazılarkən oradan böyük ölçülü sal daşlar aşkar edilmişdi. Bu səbəbdən, həmin hissədə bərpa işləri dayandırılmış və Şəki arxeoloji ekspedisiyası tərəfindən yoxlamalar aparılmış, ekspedisiyanın tədqiqatı və qazıntı işləri nəticəsində həmin hissədə qəbir aşkar olunmuşdur. Qəbirdən 52 muncuq və tunc təsbeh başlığının tapılması dəfn olunanın yüksək dini və ya dövlət statuslu şəxs olması ehtimalını yaradırdı. Mütəxəssislərə dəstək məqsədilə Heydər Əliyev Fondunun köməyi ilə aşkar olunan skeletdən nümunələr götürülüb, radiokarbon və genetik analizlər aparmaq üçün Böyük Britaniyanın Oksford Universitetinin laboratoriyasına göndərilib. Aşkar olunan skelet nümunələri və məscid ərazisindəki xan nəslinə aid digər qəbirlərdən götürülən nümunələr əsasında Böyük Britaniya ilə yanaşı, Avstriya, Estoniya və Türkiyədə də tədqiqatlar, genetik analizlər aparılıb. Laborator analizlərin nəticəsinə, eləcə də AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi rəyinə əsasən, aşkar edilən qəbirin Şəki xanı Məhəmmədhüseyn xana aid olduğu təsdiqlənib.

Onu da bildirək ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur. Muzey əyani şəkildə Şəki xanlığının yaranmasının, formalaşmasının milli dövlətçilik tariximizdə xüsusi yerini nümayiş etdirir. İki mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində Şəki xanlığı dövrünə aid mis qablar, milli geyimlər, zərgərlik məmulatları, XVIII əsr Şəki tacirlərinin evlərini bəzəyən divar güzgüləri, Şəki adət-ənənəsi üzrə onların qarşısına qoyulan mücrülər, Şəkinin kəlağayı sənətinə aid nümunələr sərgilənir. Muzeyin birinci mərtəbəsində təqdim olunan elektron lövhədə Azərbaycan və ingilis dillərində Şəki xanlığının tarixi, siyasi, sosial-iqtisadi həyatı, mədəniyyəti və Şəki xanları barədə məlumatlar çatdırılır. İkinci mərtəbədə isə Şəki xalçası, müxtəlif xalçaçılıq ləvazimatları, Əbdüllətif Əfəndinin "Şəki xanlarının tarixi" kitabı və Şəki xanlığı dövrünə aid yazılı ədəbiyyatlar, şəbəkə nümunəsi, XVIII əsr Şəki xanlarının dövründə istifadə edilmiş sikkələr, XVIII-XIX əsrə aid silah nümunələri nümayiş olunur.

Muzeyin əsas hissələrindən biri ikinci mərtəbədəki xan otağıdır. Həmin otaq Şəki xanı Məhəmmədhüseyn xan Müştağın bu binada ibadət etməsini, ədəbi məclislər təşkil etməsini, müxtəlif qəbullar həyata keçirməsini, şahmat oynamasını əyani şəkildə nümayiş etdirir.

## MƏDƏNİ İRSİMİZ QORUNUR VƏ YENİDƏN BƏRPA EDİLİR

Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilər darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin - muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərinə bir daha dünyaya təqdim etdi. Məlumdur ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etmişdir. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Bərpa prosesində Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamız tarixi günlərini yaşayır.

Vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.shusha.todayportalında da "Bizim Şuşa" adlı bölmədə şəhərin yarandığı gündən işğal olunduğu dövrə qədərki tarixi, ermənilərin Şuşa şəhərini işğal etməsi, 44 günlük müharibə, Şuşanın işğaldan azad edilməsi və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu münasibətlə xalqa müraciəti yer alıb. "Şuşada erməni vandalizmi" adlı ikinci bölmədə Şuşanın tarixi və mədəni abidələrinə qarşı erməni vandalizmi, Şuşanın Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi və bu qoruğun işğaldan sonra dağıdılması, dünya, yerli və ölkə əhəmiyyətli mədəni irs nümunələrinin talan olunması, məhv edilmiş mədəni irs nümunələrinin siyahısı və həmin abidələrin nə vaxt və kim tərəfindən inşa olunması, ermənilər tərəfindən dağıdılması haqqında məlumatlarda diqqəti cəlb edir.

Göründüyü kimi, bu gün ölkəmizdə bütün dini-mədəniyyət abidələri qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir.

***Zümrüd BAYRAMOVA***

# Putin üçün “Alyaska tələsi”



Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Trampın Alyaska görüşü iki lider arasında dördüncü sammit kimi tarixə düşdü. Trampın ilk dövründə iki lider Suriya, Ukrayna və ikitərəfli münasibətlərlə bağlı bir sıra məsələlərdə razılığa gəlmək istəmişdilər. Bəzi danışıqlar heç bir real nəticə əldə edilmədən başa çatıb, bəzi genişmiqyaslı sammitlər müxtəlif səbəblərdən ləğv edilib. Bundan əlavə, Putin və Tramp ”ayaq üstə” qısa danışıqlar aparıblar. 2024-cü ildə ABŞ-da ikinci müddətə seçilən Tramp bu ilin yanvarında vəzifəyə gəldikdən sonra Putinlə bir neçə dəfə telefon danışığı aparıb. İki lider həmçinin vaxtaşırı Rusiyaya səfər edən Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff vasitəsilə də əlaqə saxlayıblar. Trampla Putin arasında Amerika torpaqlarında keçirilən ilk görüşdən əvvəl Ukrayna böhranının həlli yolları, Rusiya ilə ABŞ arasında münasibətlərin yaxşılaşdırılması, həmçinin nüvə, strateji və regional məsələlərin müzakirə olunacağı gözlənilirdi.

## Görüşlər nəyi dəyişib?

2017-2021-ci illərdə ABŞ prezidenti vəzifəsini icra edən Tramp 2017-ci il iyulun 7-də Almaniyanın Hamburq şəhərində keçirilən G20 sammiti çərçivəsində Putinlə ilk zirvə görüşünü keçirib. Təxminən iki saat davam edən söhbət Suriya və Ukrayna, Koreya yarımadasındakı vəziyyət, terrorizmlə mübarizə və kibertəhlükəsizlik mövzularını əhatə edib. Görüşdə Suriyanın cənub-qərbində deeskalasiya zonasında hərbi əməliyyatlara son qoyulması, Ukrayna məsələsinin həllinə kömək etmək üçün Rusiya və ABŞ nümayəndələri arasında əlaqə kanalının yaradılması, hər iki ölkədən səfirlərin təyinatının asanlaşdırılması kimi məsələlər üzrə razılaşmalar əldə olunub.

2018-ci il iyulun 16-da Finlandiyanın paytaxtı Helsinkidə Rusiya və ABŞ liderlərinin ikinci sammiti baş tutub. İki saatdan çox davam edən görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı ilə bağlı mövzular müzakirə olunub. Tərəflər nüvə tərksilahı, Ukraynadakı vəziyyət, Koreya yarımadasının nüvəsizləşdirilməsi, ABŞ-ın İranın nüvə sazişindən çıxması və ”Şimal axını 2” qaz kəməri layihəsini müzakirə ediblər. İkitərəfli gündəm geniş olsa da, sammitdən heç bir real nəticə əldə olunmayıb.

Növbəti dəfə iki ölkə liderləri 2018-ci ilin noyabrında Parisdə I Dünya Müharibəsinin başa çatmasının 100 illiyi ilə bağlı tədbirlərdə iştirak ediblər. İlkin olaraq orada genişmiqyaslı danışıqlar planlaşdırılsa da, Fransa ictimaiyyətin və mətbuatın diqqətini bayramdan yayındırmamaq üçün onları ləğv etməyi xahiş edib. Parisdə baş tutmayan görüş Buenos-Ayresdə keçiriləcək G20 sammitinə dəyişdirilib. Lakin Tramp Kerç boğazında Ukrayna dənizçiləri ilə baş verən insident səbəbindən 2018-ci ilin dekabrında Putinlə baş tutmalı olan görüşü ləğv edib.

Rusiya və ABŞ liderləri 28 iyun 2019-cu ildə Yaponiyanın Osaka şəhərində keçirilən G20 sammiti çərçivəsində yenidən görüşüblər. Putin və Tramp arasında üçüncü sammit təxminən bir saat yarım davam edib. Tərəflər Suriya və Ukraynadakı vəziyyəti, silahlara nəzarəti müzakirə ediblər.

## ”Yolüstü” söhbətlər

Bu görüşlərdən biri 2017-ci il noyabrın 10-da Vyetnamın Da Nang şəhərində keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) sammiti çərçivəsində baş tutub. Görüş nəticəsində Suriyada terrorla mübarizə ilə bağlı birgə bəyanat qəbul edilib. İki lider, həmçinin 2018-ci ilin noyabrında Fransanın Yelisey sarayında və 1 dekabr 2018-ci ildə Buenos-Ayresdə keçirilən G20 sammiti çərçivəsində qısa ”yolda” söhbətlər aparıblar.

Donald Tramp və Vladimir Putin Alyaskada çoxdan gözlənilən sammitindən fərqli nəticələr gözləyə bilərdilər. ABŞ prezidenti Putinlə atəşkəs barədə danışıqlar apara biləcəyinə inansa da, Rusiya liderinin başqa iddiaları var idi. Tramp və Putinin Alyaskada çoxdan gözlənilən görüşü ərəfəsində Moskva və Vaşinqton sammitlə bağlı əsas məqsəd və gözləntilərinin nə olduğu barədə ziddiyyətli siqnallar verirdilər. ABŞ prezidenti Vladimir Putinin görüşə Moskvanın Ukraynadakı müharibəsinə son qoymaq üçün razılıq əldə etmək istədiyinə inandığını bildirirdi. Tramp Fox News radiosunda çıxışı zamanı demişdi ki: ”Putin müqavilə bağlayacaq. O, bunu edəcək. Və biz biləcəyik, mən çox tez biləcəyəm”. Bu, Trampın ilk belə bəyanatı deyildi. O, dəfələrlə demişdi ki, Putin Ukraynaya genişmiqyaslı işğala son qoymaq istəyir və ya heç olmasa Putini hansısa sövdələşməyə razı sala və ya hətta sövq edə bilər.

Bu bəyanatlar ən azı indiyə qədər reallaşmayıb. Tramp hər dəfə mümkün atəşkəs barədə danışanda Rusiya cəbhə xəttində təzyiqləri və Ukraynaya hava zərbələrini davam etdirib, hətta artırıb. ABŞ prezidentinin ritorikası son bir neçə gündə bir növ dəyişdi, bir az inandırıcı və daha az optimist oldu. ABŞ prezidentinin özü görüşün əhəmiyyətini aşağı salaraq, bunu Zelenski ilə Putin arasında baş tutacağı güman edilən ”ikinci görüşə hazırlıq” adlandırmışdı. ”Birinci görüş yaxşı keçərsə, ikinci görüşümüz olacaq”, deyən Tramp, Putin və Zelenski arasında ikinci görüşün ”demək olar ki, dərhal” baş tutmasına üstünlük verəcəyini bildirirdi. ”Putini Ukraynada mülki şəxslərə hücumu dayandırmağa inandıra biləcəyinə inanırsınızmı” sualına Tramp belə cavab vermişdi: ”Düşünürəm ki, bunun cavabı xeyrdir, çünki mən artıq Putinlə bu söhbəti etmişəm”.

## Moskva nə istəyirdi?

Kremlin sözçüsü Dmitri Peskov bildirmişdi ki, Alyaska sammitində heç bir sənədin imzalanması gözlənilmir. Peskov: ”Danışıqların nəticəsini proqnozlaşdırmaq səhvdir, Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Trampın heç bir razılaşmanı rəsmiləşdirməyi planlaşdırmırlar. Prezident Putin və prezident Tramp danışmağa hazırdırlar və ən çətin məsələləri müzakirə edəcəklər”, deyə o əlavə etmişdi.

Putinin görüşdə nümayəndə heyətinin tərkibində olan köməkçisi Yuri Uşakov bildirmişdi ki, Alyaska sammitinin əsas mövzusu Rusiyanın Ukraynadakı müharibəsini ”tənzimləmək”dir, baxmayaraq ki, iqtisadi əməkdaşlıq və qlobal təhlükəsizlik də müzakirə olunacaq. Putinin özü Rusiyanın yüksək səviyyəli rəsmiləri ilə xüsusi görüşündə demişdi ki, ABŞ administrasiyası ”döyüşləri dayandırmaq, böhranı həll etmək və bu münaqişədə iştirak edən bütün tərəflərin maraqlarına cavab verən razılaşmalar əldə etmək üçün kifayət qədər enerjili və səmimi səylər göstərir. Kreml üçün Ukrayna ilə heç bir əlaqəsi olmayan Rusiyanın ABŞ ilə münasibətlərini yeniləmək və hətta normallaşdırmaq kimi Kremlin əsas məqsədinə işarə edən Putin bu görüşün ”ölkələrimiz arasında, Avropada və bütövlükdə dünyada sülh üçün uzunmüddətli şərait yaratmaq üçün” vacib olduğunu bildirmişdi.

Görüşdə Rusiya prezidenti Ukraynaya qarşı müharibəni dayandırmaq üçün hər hansı addımdan bəhs etməyib və bunun əvəzinə Moskvanın Vaşinqtonla təmaslarına diqqət yetirərək, keçiriləcək görüşü dünyanın fövqəldövlətlərinin toplantısı kimi dəyərləndirməyə çalışıb. ABŞ-da yerləşən Müharibənin Tədqiqi İnstitutunun məlumatına görə, Kreml Alyaska sammitindən Rusiyanı ABŞ-a bərabər qlobal güc kimi təqdim etmək və Putini Trampa bərabər tutmaq üçün istifadə edir.

Rusiya tərəfindən ilhaq edilmiş Krımın təyin olunmuş lideri Sergey Aksyonov bildirib ki, Tramp ”yeni Yalta sülhü” ilə bağlı danışıqlar aparmaq üçün bölgəyə səfər etmədir. Rusiya dövlət mediası da Yalta Konfransı ilə müqayisələr apararaq, Alyaskada ”qlobal proseslərə həqiqətən təsir edən insanların” masa arxasında əyləşəcəyini iddia edib. Ümumiyyətlə, Tramp-Putin danışıqlarından üç nəticə gözləmək olardı:

1. Putin vaxt qazanır. Əsas ideya olaraq Ukraynada eyni vaxtda keçiriləcək prezident seçkiləri ilə hava atəşkəsi tətbiq edir. Havada atəşkəs, quruda isə müharibə davam edir və üç-dörd aydan sonra yekun sülh imzalanır. Putin hesab edirdi ki, bu müddət ərzində o, Donetsk vilayətini işğal edə biləcək, bu isə mümkün deyil. Amma daha önəmlisi: Ukrayna müharibə zamanı seçki keçirə bilməz. Ona görə də bu variant Kiyev və Brüssel üçün keçərli deyil.

2. Tramp müharibənin tam dayandırılmasında və müvafiq olaraq, Ukraynada təcili prezident seçkilərinin keçirilməsində israr edir.

3. Putin Ukraynanın işğal olunmamış ərazilərini tərk etməsi üçün dərhal mümkün olmayan şərtlər qoyur, hətta Tramp bunu dəstəkləməsə də.

Ancaq bu, söhbətin yalnız bir hissəsidir. Danışıqların əsas və hələ də qapalı hissəsi sanksiyaların və ABŞ-a mümkün üstünlüklərin ləğvi ilə bağlı olub. Bundan əlavə, rusların üç ay əvvəl səsləndirdiyi təklif - Arktikanın birgə inkişafı ilə bağlı - çox bahalı və çox uzaq təklif səsləndirilib. Digər bir təklif - sanksiyaya məruz qalan malların Aİ-də ticarətini həyata keçirəcək Amerika bayrağı altında birgə ticarət evlərinin yaradılması haqqında olub. Ancaq bu təklif də Avropanın mövqeyinə görə keçərli olmayıb.

Hələlik bu sanksiyaların götürülməsinin modallığının nə olacağını başa düşmək olmur. Lakin, bu, söhbətin əsas hissəsini təşkil edib. Tramp, həqiqətən də, söhbətin ilk dəqiqələrində hər şeyin bəlli olacağını deyəndə səmimi deyildi. Nə qədər qəribə səslənsə də, hələlik Putin özü bu söhbəti necə aparacağını anlamırdı. İş ondadır ki, onun yaxşı variantları yoxdur. Müharibənin sona çatması cəmiyyətin ilk mərhələdə mətbəx kimi də olsa, fəal müxalifətə keçəcək hissəsi ilə münaqişədir. Danışıqların pozulması ikinci dərəcəli sanksiyaların artırılması və Rusiya iqtisadiyyatının tənəzzülünün sürətlənməsi demək olacaq. Rusiya hakimiyyəti isə tənəzzüldən çıxış yolunu yalnız üç aspektdə görür: repressiya, korporativ reydlər və Çinin qucağına düşmək.

Danışıqlar uğursuz oldu, ilkin versiya budur. Növbəti danışıqlar pəncərəsi yalnız ABŞ-Çin danışıqlarının finiş xəttində açılacaq. ABŞ prezidenti Donald Trampın narsisizmi və Putinə pərəstişkarlığı misilsizdir. Müharibə cinayətkarına öz ərazisində və onun Rusiyaya məxsus hissəsində görüş təklif etmək təkcə geosiyasi cəhalətin zirvəsi deyil, həm də Trampın guya yenidən möhtəşəm etmək istədiyi (MAGA) ABŞ-ın görünməmiş şəkildə özünü aşağılamasıdır. Məsələ burasındadır ki, görüş yeri ”Krım bizimdir, Alyaska yenə bizim olacaq!” ruhlandırıcı şüarı altında ictimai ordu üçün təbliğat zəhərinin yeni hissəsi üçün Rusiya təbliğatına icazə verir. Söhbət ondan getmir ki, Trampın Putinə şəxsi təslim olması Qərbin strateji geri çəkilməsi kimi təqdim edilsin - ”düşmən məğlub olub qaçır!”, ”Bu gün Ankoricdə, sabah Fort Rossidə, o biri gün - Vaşinqtonda!”...

Ankoricdəki görüşdən sonra Putin və Xi 31 avqust - 1 sentyabr tarixlərində ŞƏT sammitində Tyantszində qalibiyyətlə nümayiş etdirəcəklər ki, ”indi yüz ildir baş verməyən dəyişikliklər baş verir və biz bu dəyişiklikləri birlikdə təşviq edirik”. Bu ifadə Xi-yə məxsusdur və 2023-cü il martın 21-də Moskvaya səfərinin sonunda səsləndirilib. Yaxşı, sentyabrın 3-də Pekində keçiriləcək hərbi parad dünyanı həqiqətən kimin idarə etdiyini və ABŞ-ın rəhbərlik etiyi Qərbin yenidən qlobal dalğalara atıldığını nümayiş etdirəcək. Axı Çinin vassalı artıq hardasa neytral ərazidə deyil, düşmən ərazisində danışıqlar aparır. Üstəlik, ”tarif dueli”ndə Tramp deyil, Xi qalib gəlib.

Və əgər Vaşinqtonda kimsə Rusiya-Amerika təmaslarının canlanmasının ABŞ-ın strateji düşməninin Berinq boğazı vasitəsilə Arktikaya çıxışını əngəlləyəcəyi düşüncəsi ilə təsəlli verirsə, əslində Pekin və Moskva buna başqa cür baxırlar. Rusiya Alyaskanı ABŞ-dan alanda Arktikaya gedən yol Çinə aid olacaq. Sun Tszunun traktatından məlum olduğu kimi, ”müharibə hiylə və hiylə yoludur”. Səmavi İmperatorluq incə hiyləgərlik və aldatma sənətinə malikdir və strateji baxış və səbrə malikdir. Bir anlıq media effektinə və özündən razılıq üçün Nobel mükafatına ehtiyacı olanlardan fərqli olaraq.

Putinin Arktika resurslarının birgə işlənməsinə dair Trampa verdiyi ”vəd” Rusiya ilə Böyük Sövdələşmənin ”çox milyardlarla dollar qazanc gətirəcəyi” gözləntiləri ilə yaşayan Putin üçün tələdir. Alyaskadakı sammitdən sonra iştirakçılardan heç biri müzakirənin hansı mərhələdə dayandığını söyləmədi, lakin güman etmək olar ki, danışıqlar yolu həm biznes layihələri, həm də siyasi layihələr üzrə davam edir. Bu vəziyyət, ilk növbədə, Ukraynanın informasiya məkanında qiymətləndirmələrə səbəb olacaq. Tramp görüşlə Putini aşağıladı, qatlanan çarpayılarda yatmağa icazə verdi, ona nahar vermədi (bunun harası geosiyasi qələbədir).

**V.VƏLİYEV**

ANALİTİK

# Elektromobillərə maraq azalır: Səbəblər nədən ibarətdir?



***Müxtəlif ölkələrdə hər nə qədər təşviq olunsa da, hər cür şərait və güzəştlər təmin olunsa da, elektromobillərə maraq elə də yüksək deyil. Bu maşınların qiymətinin ucuz olması və gediş xərclərinin aşağı olması bəzilərini cəlb etsə də, əksəriyyət bu maşınlara etibar etmir.***

Rusiya hökuməti elektromobillər üçün infrastrukturun inkişafına əlavə olaraq 5,7 milyard rubl ayırmağı planlaşdırır. Vəsait enerji doldurma avadanlığının alınması və onun elektrik şəbəkələrinə qoşulması üçün subsidiyalara yönəldiləcək. Baş nazir Mixail Mişustin bildirib ki, bu məqsədlər üçün artıq 3,5 milyard rubl ayrılıb. Bu, sürətli elektrik doldurma stansiyalarının sayını 2000 ədədə çatdırmağa imkan verdi.

Yeni tədbirlər paketinə görə, 3 il ərzində ölkədə 1900-ə yaxın yeni enerji yükləmə stansiyası yaranacaq. Dövlət operatorlara avadanlıqların alınması və quraşdırılması xərclərinin 60 faizə qədər kompensasiya verməyə hazırdır. Mixail Mişustinin fikrincə, enerji doldurma infrastrukturunun coğrafiyasının genişlənməsi elektromobilləri sürücülər üçün daha rahat etməyi stimullaşdıran əsas addımdır.

Lakin enerji doldurma stansiyalarının artması satışların artmasına səbəb olmur. İlk baxışdan məntiq aydındır: doldurma nöqtələri nə qədər çox olarsa, elektromobildən istifadə etmək bir o qədər asan olar. Lakin reallıq bunun əksini göstərir. Doldurma stansiyaları şəbəkəsinin sistemli şəkildə genişlənməsinə baxmayaraq, Rusiyada elektrik nəqliyyatına kütləvi maraq yoxdur.

Sənaye və Ticarət Nazirliyinin məlumatına görə, 2025-ci ilin ilk 7 ayında yeni elektrik avtomobillərinin satışı 51 faiz azalaraq cəmi 6106 ədəd təşkil edib. "Avtostat" agentliyinin analitikləri aydınlıq gətirirlər ki, Rusiyanın avtomobil parkında elektromobillərin payı uzun müddətdir ki, 1 faiz həddini aşa bilmir. Belə çıxır ki, enerji doldurma məntəqələrinin sayının artması elektromobil alıcılarının sayının artmasına çevrilmir.

Milli Avtomobil İttifaqının vitse-prezidenti Jan Haytser hesab edir ki, təşəbbüs iqtisadi xarakterdən daha çox siyasi xarakter daşıyır. Mütəxəssisin fikrincə, daha ağlabatan istiqamət qaz mühərriklərinin inkişafı olardı. Belə bir layihə vaxtilə "KamAZ"da hazırlanıb, lakin tam həyata keçirilməyib.

Yan Haytser elektrik nəqliyyatı sahəsində dünya təcrübəsinin idealdan uzaq olduğunu da vurğulayıb. "Yaşıl" enerjinin təşviqinə xeyli əvvəl başlanılan Avropada da bu sahəyə indi maraq azalıb. Ən böyük avtomobil konsernlərinin rəhbərləri artıq açıq şəkildə bildirirlər ki, elektriklə işləyən avtomobillərə keçməyi nəzərdə tutan əvvəlki planlar dayandırılır.

Hökumətin təşəbbüsü gələcəyin infrastrukturunun formalaşdırılmasına yönəlib, lakin ekspertlər elektriklə işləyən avtomobillərə tələbatın yalnız enerji doldurma stansiyalarının tikintisi hesabına artacağına şübhə edirlər. Mövcud tendensiyalarla bazar çox ləng inkişaf edir və investisiyalar riskli görünür. Rusiya üçün əsas dilemma seçimdir: qlobal tendensiyaları izləməyə davam etmək və ya öz texnoloji yollarını axtarmaq, məsələn, qaz mühərrikləri ilə layihələrin canlandırılması və təkmilləşdirilməsi.

Qeyd edək ki, Rusiyada uzun illərdir ki, yerli elektromobil modelləri istehsal olunur- KAMAZ, Moskviç, Lada və sair firmaların belə modelləri var, lakin onların satışı azdır. Çindən idxal olunan modellərin də satışı azalır.

Qeyd edək ki, Yaponiyada da elektromobillərin istehsalı gündəmdən çıxarılır, daha çox hybrid modellərin istehsalına üstünlük verilir. Həmçinin, hidrogenlə işləyən mühərriklərin yaradılması və avtomobillərdə tətbiqi prosesi başlayır.

Ekspertlər gələcəyin avtomobilləri üçün ən optimal variantın hidrogen mühərrikləri olacağını deyirlər. Çünki elektromobillərlə bağlı çoxlu problemlər və suallar var. Yüksək elektromaqnit sahəsinin sağlamlığa zərərli təsirindən tutmuş, batareyaların xammmalının limitli olmasınadək. Üstəlik bu batareyalar çox baha başa gəlir və az qala avtomobilin yarı qiyməti qədərdir.Bu batareyaların utilizasiyası ekologiyaya da ağır zərər vurur. Soyuq ölkələrdə xüsusən batareyalar tez boşalır və bu çox ciddi probelmlərə səbəb olur.

Üstəlik elektromobil üzərində tam nəzarət imkanı sürücüyə məxsus deyil, istənilən an kənardan müdaxilə ilə avtomobili blok etmək mümkündür. Və ya müəyyən şəraitlərdə avtomobil özü bloklanır və bu sürücülər üçün başağrısına çevrilir.

Bütün bunlar onu göstərir ki, daxili yanma mühərriklərini əvəz edəcək elektrik texnologiyası sabit və təhlükəsiz deyil, üstəlik ekoloji zərərlilik və sağlamlığa problem yaratması faktı var. Bu səbəbdən dünya ölkələrində süni hay-küylə təqdim olunan elektromobillərə keçid prosesi baş tutmayacaq.

Hər nə qədər Çin ucuz qiymətə çoxsaylı elektromobil istehsal edib ixrac etsə də, bu maşınların dünyada üstün mövqeyə keçəcəyinə inam yoxdur. Çünki getdikcə daha çox sürücü aldığı elektromobili satıb ənənəvi avtomobilə keçməyə çalışır.

Azərbaycanda da elektormobobillər üçün güzəştlər tətbiq olunmasına baxmayaraq bu maşınlara maraq çoxalmayıb. Ölkəmizdə belə modellər tək-tük rast gəlinir. Sürücülər daha çox hibrid və ya ənənəvi mühərrikli kompakt avtomobillərə maraq göstərir. Bir də sınaqdan çıxmış köhnə modellərə.

Ümumiyyətlə, dünya avtomobil parkının gələcəyi şübhəlidir və hansı texnologiyanın üstün gələcəyi haqda qəti bir söz demək mümükn deyil. Hər şey elmdə baş verəcək yeniliklərdən asılıdır. Tamamilə təhlükəsiz, etibarlı, zərərsiz enerji növü yaradılmasa, bu qarışıqlıq hələ uzun müddət davam edəcək.

***Elçin Bayramlı***

## Azərbaycanın bir qrup media nümayəndəsi NATO-nun Baş qərargahında olub



Azərbaycanın bir qrup media nümayəndəsi NATO-nun Baş qərargahında olublar. SİA xəbər verir ki, səfər NATO-nun dəvəti ilə baş tutub.Qeyd edək ki, bu ilki səfər xüsusilə rəmzi məna daşıyır, çünki o, Azərbaycan Milli Mətbuatının 150 illiyi ilə üst-üstə düşür.

## Qarabağın biomüxtəlifliyi və ekoloji inkişafı ilə bağlı beynəlxalq konfrans keçiriləcək



Azərbaycanda oktyabrın 29-da "İşğaldan azad olunmuş torpaqlarda biomüxtəlifliyin qorunması və dayanıqlı ekoloji inkişafı" adlı beynəlxalq konfrans keçiriləcək. SİA xəbər verir ki, konfrans Dendrologiya İnstitutu, Elm və Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb Elmləri Bölməsi, Rusiyanın Baş Botanika Bağı, Amerika Massaçusets Universiteti Kənd Təsərrüfatı Kolleci, Qazaxıstan Botanika və Fitointroduksiya İnstitutu, Qazaxıstan Manaş Kozıbayev adına Şimali Qazaxıstan Universiteti, Özbəkistan Alfarangus Universiteti, Pakistan OAK Consulting Organization, Türkiyə Erzurum Texniki Universitetinin təşkilatçılığı ilə baş tutacaq.

Konfransın əsas məqsədi Qarabağ iqtisadi rayonu biomüxtəlifliyinin müasir vəziyyətinin öyrənilməsi, onun qorunması, saxlanması, inkişafı, nadir və nəsli kəsilməkdə olan növlərin qiymətləndirilməsi və bərpasıdır. Həmçinin antropogen təsirlərin biomüxtəlifliyə göstərdiyi təsirlərin elmi əsaslarla aradan qaldırılması istiqamətində tədqiqatlar aparılması, həmçinin regionda dayanıqlı ekoloji inkişafı təmin edən elmi tədqiqatların nəticələrinin tətbiqidir.

Eləcə də bu sahənin elm adamları ilə təcrübə mübadiləsinin həyata keçirilməsi üçün elmi platformanı formalaşdırmaqdan ibarətdir.

## BMT heç nə bilmir



BMT bildirib ki, Şimal axınının partlaması ilə bağlı heç bir təfərrüat yoxdur və onların partlayışı ilə bağlı xəbərləri təsdiq və ya təsdiq edə bilmir. "Ukrinform" xəbər verir ki, bunu çərşənbə axşamı, avqustun 26-da BMT Təhlükəsizlik Şurasının iclasında baş katibin Avropa, Mərkəzi Asiya və Amerika üzrə köməkçisi Myroslav Yença deyib. "Birləşmiş Millətlər Təşkilatının bu hadisələrlə bağlı əlavə təfərrüatları yoxdur və insidentlə bağlı verilən bəyanatları və ya hesabatları yoxlamaq və ya təsdiqləmək iqtidarında deyil".

Yença xatırladıb ki, 2022-ci il sentyabrın 26-dan 29-na kimi İsveç və Danimarka iqtisadi zonalarının beynəlxalq sularında yerləşən "Şimal axını 1" və "Şimal axını 2" qaz kəmərlərində dörd sızma qeydə alınıb. BMT-nin Ətraf Mühit Proqramının himayəsi altında aparılan araşdırmaya görə, hadisə insan fəaliyyəti nəticəsində planetdə ən böyük metan emissiyası ilə nəticələnib, Yenca bildirib. Tədqiqatda 30 tədqiqat təşkilatından 70-ə yaxın alim iştirak edib. Onlar sızmanın ehtimal olunan həcminin 445.000 ilə 485.000 ton arasında olduğu qənaətinə gəliblər ki, bu da əvvəllər düşünüldüyündən iki dəfə çoxdur. Danimarka, Almaniya və İsveçin hüquq-mühafizə orqanları ayrı-ayrı milli araşdırmalara başlayıb və ölkələr bu barədə mütəmadi olaraq Təhlükəsizlik Şurasına məlumat veriblər.

Xatırladaq ki, çərşənbə axşamı Rusiya "Şimal axını 1" və "Şimal axını 2" qaz kəmərlərində baş verən partlayışların araşdırılması ilə bağlı vəziyyəti müzakirə etmək üçün BMT Təhlükəsizlik Şurasının iclasını çağırıb. Məlum olduğu kimi, İtaliyada "Şimal axını 1" və "Şimal axını 2" qaz kəmərlərində təxribatda iştirakda şübhəli bilinən ukraynalı saxlanılıb.

**VƏLİ**

# Yaxın Şərqdə sülh yarana bilər

## Sentyabrın 25-də Suriya ilə İsrail arasında barışıq sənədi imzalanacaq



Dünyanın müxtəlif bölgələrində baş verən qanlı müharibələr, münaqişələr, vətəndaş qarşıdurmaları arasında ən amansızı Yaxın Şərqdə davam edən toqquşmalardır. Bu toqquşmaların özəlliyi və digərlərindən fərqi ondan ibrətdir ki, amansız müharibələrin kökü min illər öncələrə gedib çıxır. Tərəflər arasında baş verən toqquşmaların sayı yüzlərlədir. İlkin dövrdə yaşanan kiçik toqquşmalar müasir dövrdə genişmiqyaslı müharibələrlə əvəzlənib. Bu baxımdan Yaxın Şərq dünyanın ən narahat, təlatümlü, insan ölümlərinin adiləşdiyi bir məkana çevrilib. Düzdür, Osmanlı İmperiyasının bu ərazilər üzərində hökmranlıq etdikləri dövrdə sakitlik hökm sürüb. İnsanlar daha rahat, firavan ömür yaşayıblar. Ancaq ötən əsrin əvvəlində Böyük Britaniya krallığının işğal siyasətini genişləndirməsi bir sıra ərazilərlə yanaşı Yaxın Şərqində sakitliyini pozdu. Osmanlı İmperiyasının Birinci Dünya müharibəsində məğlub olmasından sonra Britaniya Fələstin ərazilərini nəzarətə götürdü. Bundan sonra ərəblər arasında nifaq toxumu səpmək, onlara qarşı yeni qüvvə formalaşdırmaq üçün İngiltərə yəhudi dövlətinin yaradılması istiqamətində plan işləyib hazırladı. Bununla bağlı Böyük Britaniya ”Balfour Bəyannaməsi”ni də qəbul etdi. Bəyannaməyə görə Böyük Britaniya yəhudi dövlətinin yaradılmasına razılıq verir və fələstinlilərlə yəhudilərin birgə yaşayışının təmin olunmasına zəmanəti öz öhdəsinə götürür. Bu Bəyannamə 1922-ci ildə Millətlər Liqası tərəfindən təsdiq olunur. Lakin bölgədə yeni güc mərkəzlərinin formalaşması Böyük Britaniyanın ərazi üzrə planlarının təxirə salınmasına gətirib çıxardı. 1930-cu illərdən başlayaraq dünyada yeni dağıdıcı gücə malik silahlar, hərbi texnikalar yaradılmağa başladı. İddialı və hikkəli imperialist dövlətlər yeni silahları ordularına cəlb etməklə hərbi güclərini artırdılar. O zaman mövcud olan dağıdıcı gücə malik silahların həcmi indiki hərbi silah-sursatdan bir neçə dəfə üstün idi. Təbii ki, sürətlə silahlanma, nəhayət, yeni toqquşmalara, müharibələrə gətirib çıxarmalı idi. Belə də oldu.

### İkinci Dünya müharibəsindən sonra qazanan İsrail oldu

Nasist Almaniyası öz hərbi gücünə və qüdrətinə arxalanaraq dünyanın yenidən bölüşdürülməsi üçün hərəkətə keçdi. 13 mart 1938-ci il, Adolf Hitler təntənəli surətdə Vyanaya daxil olur və həmin gün axşam Avstriyanın Almaniyaya birləşməsi haqqında qanun elan olunur. 1938-ci sentyabrın 1-də Çexslovakiyaya aid Sudet bölgəsi, 1939-cu ilin 15 martında geriyə qalan ərazisi Almaniyanın tabeliyinə keçir. Almaniya 1 sentyabr, 1939-cu ildə Polşa üzərinə hücum etməklə İkinci Dünya müharibəsinin əsası qoyulur. Lakin faşist Almaniyası üçün İkinci Dünya müharibəsi fəlakətlə nəticələnir. Baxmayaraq ki, ilkin mərhələdə hərbi uğurlar əldə olunur, ancaq bu hərbi uğurları saxlamaq mümkün olmur. Nəticədə, zəifləyən nasistlər özləri ilə yanaşı milyonlarla insanın ölümünə səbəbkar olurlar. Müharibədən qalib çıxan SSRİ və ABŞ dünyanın yenidən bölünməsinə çalışırlar. Onlar buna nail olurlar. Yeni dövlətlər, yeni sistemlər yaranır. Bundan istifadə edən yəhudilər Böyük Britaniya ”Balfour Bəyannaməsi”nin reallaşması üçün işə başladı. Bu dəfə onların himayədarı rolunda ABŞ çıxış edirdi.

1947-ci ildə mənzil qərargahı Nyu-Yorkda yerləşən BMT ABŞ-ın siyasi, iqtisadi təzyiqi və təsiri ilə Fələstinin ayrı-ayrı yəhudi və ərəb dövlətlərinə bölünməsinə və Qüdsün (Yerusəlimin) BMT nəzarəti altında xüsusi statusa malik ayrıca bir şəhərə çevrilməsinə dair 181 (III) saylı qətnamə qəbul etdi. Eyni zamanda onların sərhədləri müəyyən edildi. Bu qətnamə yəhudi liderlərini razı salsa da, ərəblər tərəfindən qəbul edilmədi. 1948-ci yəhudi liderləri İsrail dövlətinin yaradıldığını elan etdilər. Bundan sonra bölgədə vəziyyət daha da gərginləşdi. Qısa müddət ərzində İordaniya İordan çayının Qərb sahili kimi tanınan əraziləri, Misir isə Qəzzanı işğal etdi. Bundan sonra nisbi sakitlik yaransa da, ara-sıra yəhudilərlə ərəblər arasında kiçik həcmli toqquşmalar baş verirdi. Nəhayət, İsrailin ABŞ tərəfindən böyük həcmdə silah-sursatla, hərbi texnika ilə təchiz olunması yəhudi dövlətinin 1917-ci ildən hazırlanan planının həyata keçirilməsinə imkan yaratdı.

### Altıgünlük müharibə ərəblər üçün acı nəticələr verdi

1967-ci il altıgünlük müharibə zamanı İsrail Şərqi Qüdsü və İordan çayının qərb sahilini, həmçinin Suriyanın Qolan təpələrinin çoxunu, Qəzzanı və Misirin Sinay yarımadasını işğal etdi. Fələstinlilərin İsrailə və onun işğalına qarşı iki üsyanı 1987 və 2000-ci illərdə baş verdi. Həmin müharibədən qaçan sadə fələstinli qaçqınların əksəriyyəti və onların nəsilləri Qəzzada və İordan çayının qərb sahilində, eləcə də İordaniya, Suriya və Livanda yaşayır. İsrail 1967-ci ildən 2005-ci ilə qədər işğal etdiyi Qəzzada qalıb. 2005-ci ildə İsrail BMT-nin cəmi bir qərarını qismən icra edərək ordusunu Qəzzadan geri çəkib. Bununla belə İsrail Qəzzaya nəzarətdən imtina etməyib. İsrail ordusi Qəzzanın hava məkanına, ortaq sərhədə və dəniz sahilərinə nəzarət edir. Altıngünlük müharibədən sonra da ərəblərlə yəhudilər arasında ara verməyən savaşlar baş verib.

1973-cü ildə Suriya və Misir altıgünlük müharibə zamanı itirilmiş əraziləri geri qaytarmaq üçün İsrailə hücum etdilər. Lakin hücum nəticəsiz qaldı. İsrail öz mövqelərini qoruyub saxlamağı, hətta bir qədər də möhkəmləndirməyi bacardı. Bundan sonra məsələyə BMT qarışdı. 1974-cü ildə BMT Baş Assambleyası ”Fələstin xalqının öz müqəddəratını təyin etmək, milli müstəqillik və suverenlik kimi təməl hüquqlarını” bir daha təsdiqlədi. Bundan sonra Misir bir qədər sərt mövqeyindən və fəaliyyətindən imtina edərək İsraillə münasibətlər qurdu. 1979-cu ildə isə Misirlə İsrail arasında sülh müqaviləsi bağlandı. Sülh müqaviləsinin imzalanması ilə 1982-ci ildə İsrail işğal etdiyi Sinay yarımadasını Misirə qaytardı. 1982-ci ildə İsrail ordusu Fələstin Azadlıq Təşkilatının bazalarını məhv etmək niyyəti ilə Livana hücum etdi. Hücum nəticəsində Livanın bir hssəsi işğal olundu. Bu azmış kimi İsrailin dəstəklədiyi Livan Qüvvələri Qərbi Beyrutdakı Sabra və Şatila Fələstin qaçqın düşərgələrində qırğınlar həyata keçirdilər.

1982-ci il. ”Hizbullah” silahlı qruplaşmanın yaradılması ilə bölgədə vəziyyət daha da ağırlaşdı. Silahlı dəstə hazırkı fars-mollar rejimi tərəfindən yaradıldığından təşkilatın maliyyə və hərbi silah-sursata olan ehtiyaclarını da əmmaməli mollalarla həyata keçirdilər. 1980-ci ildə FAT Fələstin dövlətini elan etdi. Təşkilat mübarizə vasitəsi kimi terrordan imtina etdiyini elan edərək, İsrailin 1967-ci ildə işğal etdiyi torpaqlardan çıxması şərti ilə Fələstinin ərəb və yəhudi hissələrinə bölünməsinə razılıq verdi. 1993-cü il də İsrail ilə Fələstin Azadlıq Təşkilatı arasında ilk müqavilə bağlandı. İsrail İordan çayının qərb sahili və Qəzza zolağının idarə olunması üçün rəsmi Fələstin hökumətinin yaradılmasına razılıq verdi və yaradılmış Fələstin Muxtariyyətindən qoşunlarını çıxarmağa başladı. 1995-ci il. İsrailin baş naziri İshak Rabinin öldürülməsi ilə vəziyyət daha gərginləşdi və imzalanan müqavilələr kağız paçasına çevirildi. Cinayətkar, israilli ifrat sağçı fəal ”İsrail xalqını Rabinin imzaladığı Oslo razılaşmasından müdafiə etdiyini” bildirdi. Tezliklə fələstinlilərlə danışıqlara tənqidi yanaşan Benyamin Netanyahu hakimiyyətə gəldi.

2004-cü ildə HƏMAS liderləri Yasini və onun müavini Əbdül-Əziz Rantisini öldürdü. Bu zərbənin Fələstin rəhbərliyində radikalların mövqelərini zəifləd əcəyi ehtimal edilirdi. Lakin əksinə oldu. HƏMAS yeni hücumları ilə İsrailə ciddi zərbələr vura bildi. HƏMAS hücumları ilə yanaşı İsrail ərazilərində bir sıra terror aktları törətdi ki, bu da siyasi hakimiyyətin mövqelərinin sarsılmasına gətirib çıxardı. 2006-cı ildə İsrail ordusunun Hizbullah bölmələrini Livanın cənubundan çıxarmaq cəhdi oldu. Bir aylıq döyüşdən sonra barışıq əldə edildi. Hizbullah atəşi dayandırdı, 2007-ci il. HƏMAS Qəzza zolağında hakimiyyəti ələ keçirdi. Fələstin HƏMAS-ın nəzarətində olan Qəzza zolağına və FƏTH-in rəhbərlik etdiyi Qərb Sahilinə bölündü. HƏMAS İsraillə Oslo razılaşmalarını tanımaqdan imtina etdi. 2008-ci ildə İsrailin Qəzza zolağında HƏMAS-a qarşı hərbi əməliyyatı İsrailin cənubundakı atışmaların intensivliyini azaltmağa imkan verdi, lakin HƏMAS bölgədəki gücünü qoruyub saxlaya bildi. Donalt Trampın birinci prezidentlyi dövründə ABŞ Yerusəlimi İsrailin paytaxtı kimi tanıdı. Paralel olaraq ABŞ səfirliyi Təl-Əvivdən Yerusəlimə köçdü. ABŞ-dan sonra Qvatemala, Vanuatu və Avstraliya da Qüdsü İsrailin paytaxtı kimi tanıdılar. 2020-ci il. ”Abraham razılaşmaları”. İsrail və ərəb dövlətləri: BƏƏ, Bəhreyn və Mərakeş arasında münasibətlərin normallaşdırılmasına dair ABŞ-ın vasitəçiliyi ilə bir sıra sazişlər imzalandı. 2021-ci il. ”Divarların Mühafizəsi” əməliyyatı. İsrail ordusu bunu kütləvi raket atəşinə cavab olaraq Qəzza zolağında həyata keçirdi.

### Min illərdir davam edən yəhudi-ərəb qarşıdurmasının bir sənədin imzalanması ilə aradan qaldırılması inandırıcı deyil

2023-cü il 7 oktyabr hadisəsindən sonra isə İsrail yenidən Qəzzanı işğal edib. Belə ki, HƏMAS silahlı qruplaşmasının 2023-cü il oktyabrın 7-də İsrailə qarşı həyata keçirdiyi genişmiqyaslı əməliyyatdan sonra tərəflərarası yeni və amansız müharibə baş vermişdir ki, hələ də bu müharibə davam etməkdədir. O zaman HƏMAS-ın hücumu ilə İsraildən olan 1500-ə yaxın insan öldürüldü və girov götürüldü. Bu günə qədər də HƏMAS tərəfindən İsraildən olan qadınlar və uşaqlar Qəzzada girov kimi saxlanılır.

İsrail ordusunun cavab olaraq Qəzzaya həyata keçirdiyi çoxsaylı hava zərbələri nəticəsində Qəzza demək olar ki, tamamilə dağıdılıb. Bu günə qədər 50 mindən çox fələstinli öldürülüb. Bu azmış kimi İsrail hələ də sağ qalan fələstinliləri cəzalandırmaq üçün onları tam şəkildə blokadaya alıb. İnsanların qida, yanacaq və digər zəruri ehtiyacları təmin edilməsinə imkan vermir. 2024-cü ilin iyul ayında Beynəlxalq Ədalət Məhkəməsi Fələstin ərazilərinin bir siyasi vahid təşkil etdiyini və İsrailin İordan çayının qərb sahilini və Qəzza zolağın işğal etdiyinə dair qərar çıxarmışdır. Eyni zamanda Beynəlxalq Ədalət Məhkəməsi İsrailin siyasətinin İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiyanı pozduğunu müəyyən edib. Lakin İsrail siyasi dairələri dünya birliyinə qarşı çıxaraq beynəlxalq təşkilatların qərar və tövsiyyələrini rədd edir. Əksinə, Qəzzada işğal siyasətini genişləndirmək üçün hərbi planlar hazırlayır.

İsrail qonşu sərhədyanı dövlətlərə qarşı hərbi gücdən isitfadə etmək onları təhdid etməkdədir. Xüsusilə də Suriyanın şəhər və qəsəbələrini bombalayır, bəzi ərazilərinə isə ordu yeridir. Bu günlər İsrail ordusu Suriya ilə sərhəddəki Qolan təpələrindəki bufer zonada mövqelərini bir qədər də genişləndirib. Hətta İsrail ordusu Suriya ilə bufer zonada yerləşən Hermon dağının qarşı tərəfdəki nöqtəsini ələ keçirib. Suriyanın Əş Şaara hökuməti İsrail ordusunun hərbi hərəkətlərini ”təhlükəli eskalasiya” adlandırıb. Hakimiyyət İsrailin Hermon dağının ətəklərinə nəzarət etməsinin onun suverenliyinin pozulması olduğunu bəyan edib. Bir qədər əvvəl isə İsrail ordusu Suriyanın cənubunda yerləşən Sveyda şəhərinə hava hücumu həyata keçirmişdir. Hücumlar Sveydada druz və bədəvi silahlı qruplar arasında baş verən və azı 30 nəfərin ölümü ilə nəticələnən toqquşmalardan sonra baş verib. Hücumlardan sonra Suriya ordusu bölgədə təhlükəsizliyi təmin etmək, mülki əhalini və onların əmlakını qorumaq məqsədilə əraziyə qoşun yeritmişdi. İsrailin druzları qorumaq adı altında əraziyə ordu göndərmək istəyi Türkiyə tərəfindən sərt etirazla qarşılanıb. Türkiyə Xarici İşlər naziri Hakan Fidan Suriya məsələsinin Türkiyənin milli təhlükəsizliyi olduğunu bəyan edib. Hətta xarici nəşrlərin iddialarına görə, Suriyadakı Türkiyə ordusu İsrailin Suriyaya olan quru əməliyyatlarının qarşısını almaq üçün hazırlıq vəziyyətinə gətirilib. Təbii ki, Türkiyənin meydana çıxması İsrailin süqutu və sıradan çıxarılması demək olar. Ona görə də, İsrailin yaxın dayağı ABŞ bunu yaxşı anladığından proseslərə müdaxilə etməli olub. Məhz bundan sonra İsrail tərəfi druzları qorumaq adı altında Sveyda ordu göndərmək fikrindən çəkinib. Eyni zamanda, İsrail tərəfi Türkiyənin gözlənilə biləcək həmləsinin qarşısını almaq üçün Suriya ilə anlaşmağa çalışır. Vasitəçiliyi ilə D.Tramp hakimiyyəti həyata keçirir. Məlumata görə, ABŞ-ın vasitəçiliyi və Körfəz ölkələrinin dəstəyi ilə sentyabrın 25-də Suriya ilə İsrail arasında sabitliyin təmin olunmasına dair sənəd imzalanacaq. Sənədin imzalanması BMT Baş Assambleyasının Nyu-Yorkdakı sessiyası çərçivəsində, ABŞ prezidenti Donald Trampın iştirakı ilə baş tuta bilər. Məlumatı Suriya prezidenti Əhməd Əş-Şaara təsdiqləyib. Ancaq bildirib ki, sənədin imzalanması normallaşmadan yox, yalnız təhlükəsizliklə bağlı razılaşmaya nail olunmasına xidmət edəcək Əş Şaara dan gedir. Suriya və İsrail arasında sentyabrın 25-də imzalanması gözlənilən sənəddə əsasən Suriyanın Qolan təpələrinin müəyyən hissəsində delimitarizasiya zonası yaradılması əks olunub. Həmçinin həmin ərazilərdə raket və hava hücumundan müdafiə sistemlərinin yerləşdirilməsinin qadağan edilməsi, Suriya ordusunun Türkiyənin iştirakı ilə bərpasına yol verilməməsi, Əs-Süveydə druz icması üçün humanitar dəhlizin açılması və digər müddəalar əks olunub. Sənədin imzalanması ilə Suriya ABŞ və Avropadan maliyyə yardımları əldə edəcək.

Bir sözlə, ümid edilən hal ondan ibarətdir ki, nəhayət, Yaxın Şərqdə sülh yaranacaq. Təbii ki, sülhün əldə edilməsi insan ölümlərinin aradan qalxması, şəhər və qəsəbələrin, kəndlərin dağıdılmasının qarşısının alınması deməkdir. Ən başlıcası isə insanlar sakit, rahat yaşamaq imkanı qazanacaqlar. Lakin arzu edilənlərə ümid azdır. Çünki min illərdir davam edən jəhudi-ərəb qarşıdurmasının bir sənədin imzalanması ilə aradan qaldırılması inandırıcı deyil.

***İLHAM ƏLİYEV***

BAXIŞ BUCAĞI

# “Gürcü arzusu” qalibdirmi?

Payız yaxınlaşdıqca Gürcüstanda siyasi mübarizə daha da şiddətlənir. Müxalifətin bir hissəsi növbəti dəfə ”Gürcü arzusu” hökumətinin devrilməsinə çağırışlara başlayıb, hakim partiya isə artıq yerli seçkilərdə qələbəsini qeyd etməyə başlayıb. Eyni zamanda, millət vəkilləri valideynləri övladlarını mitinqlərə buraxmamağa çağırır, çünki onlar qanunları pozmaqda ittiham oluna bilərlər. Vahid Milli Hərəkatın (VMH) siyasi şurasının sədri Levan Xabeişvili gürcüləri oktyabrın 4-də keçiriləcək yerli seçkilərdə iştirak etməməyə, Tbilisinin mərkəzində keçirilən kütləvi etiraz aksiyasına qoşulmağa çağırıb. Onun fikrincə, insanları istənilən proqramlar ətrafında birləşdirmək cəhdlərindən əl çəkməyin və sadəcə olaraq, hakim ”Gürcü Arzusu”nun banisi Bidzina İvanişvilini görməzlikdən gəlməyin vaxtı çatıb. ”4 oktyabrı Qələbə Günü edək - bu, həqiqətən də öz əlimizdədir! Gəlin hamımız Rustaveliyə çıxaq və gürcü xalqının misilsiz birliyini göstərək, bu, qeyd-şərtsiz dinc payız inqilabına gətirib çıxaracaq!” - Xabeişvili deyib.



Bundan əlavə, VMN də daxil olmaqla səkkiz müxalifət partiyası ”Gürcüstan naminə Qaxariya” və ”Güclü Gürcüstan” partiyalarını yerli seçkilərdə iştirakdan imtina etməyə çağırıb. Əvəzində onlar bütün vətənpərvərləri sentyabrın 13-də mitinqə çıxmağa çağırıblar: ”Gəlin çox olaq, çıxaq və bəyan edək ki, Rusiya rejimi gürcü xalqını və Gürcüstanı təmsil etmir”, - Droa lideri Elen Xoştariya bəyanat oxuyub. Lakin müxalifət düşərgəsindəki həmkarlar belə qərara gəliblər ki, mitinqdənsə, seçkidə iştirak etmək daha yaxşıdır. ”Biz boykotu dəstəkləyən səkkiz partiyaya qoşulmaq fikrində deyilik. Bizim öz yolumuz, baxışımız və strategiyamız var, lakin onların qərarlarına hörmətlə yanaşırıq. ”Gürcüstan üçün Qaxariya” və ”Güclü Gürcüstan” ortaq namizədlər irəli sürüblər və biz seçkiləri ”Gürcü arzusu”nu məğlub etmək və ölkəni xilas etmək uğrunda gedən döyüş kimi qiymətləndiririk”, - Gürcüstan liderlərindən biri Alekonqişişi vurğulayıb.Bu fikri ”Gürcüstan naminə Qaxariya” partiyasının üzvü Georgi Şaraşidze də bölüşür. ”İnanırıq ki, ”Gürcü Arzusu” ilə mübarizənin ən düzgün və təsirli yolunu seçmişik. Bu mübarizəni sona qədər görəcəyik. Əgər digər müxalifət partiyaları boykot, dinc inqilab və çevriliş yolu ilə daha böyük nəticələr əldə edəcəklərini düşünürlərsə, bu, onların seçimidir. Amma biz hakim partiyanı məğlub edib müxalifətə çevirməyi bilirik. Oktyabrın 4-də bələdiyyə seçkiləri başa çatacaq”, Şaraşidze deyib.Hər halda, ”Gürcü arzusu” müxalifətin fəallığından qətiyyən narahat deyil. Əksinə, hakim partiya yerli seçkilərdə parlaq qələbə qazanacağını əvvəlcədən elan etmişdi. ”Gürcü arzusu” bələdiyyə seçkilərində asanlıqla qalib gələcək, çünki onlar buna qarşı çıxa bilməyəcəklər”, - deyə bu siyasi qüvvədən olan deputat Tengiz Şarmanaşvili bildirib. Onun sözlərinə görə, müxalifətin bir hissəsi seçkilərdə iştirak etməmək qərarına gələndə əvvəlcədən hakimiyyət uğrunda mübarizədən vaz keçib, buna cəsarət edənlər isə qələbə üçün lazım olan resurslardan məhrum olublar.Tbilisi meri Kaxa Kaladze rəqiblərinə fikir verməməyi təklif edib. Onun sözlərinə görə, müxalifətdəkilər pensiyaların artırılması kimi reallıqdan kənar vədlər verirlər, halbuki biz şəhərdə həyatı necə yaxşılaşdırmaq barədə düşünməliyik. ”Mer pensiyanın ölçüsünü necə dəyişə bilər? Heç bir mer sədri bununla bağlı heç nə edə bilməz... Son səkkiz il ərzində biz çox gözəl layihələr həyata keçirmişik, eyni zamanda, çoxlu problemlər və çətinliklər var. Tiflis köhnə şəhərdir, sökük binaları, köhnəlmiş yeraltı infrastrukturu və bütün bunları qaydaya salmaq lazımdır. Bütün bunlar bizim komandaya və vətəndaşlara yaxşılıq gətirə bilər”, - Kaladze bildirib.Öz növbəsində parlamentin diaspor məsələləri üzrə komitəsinin sədri İrakli Zarkua həmvətənlərinə söz verib ki, Gürcüstanda yeni etiraz mövsümü başlayır, lakin bu, inqilaba səbəb olmayacaq. Bununla bağlı siyasətçi valideynləri övladlarını mitinqə buraxmamağa çağırıb. ”Valideynlər məhkəmə binasının qarşısında durub ağlayanda biz narahat oluruq. Onlar uşaqlarının qayğısına qalsınlar, bəlkə də onları xilas etmiş olarlar. Çox gec olmadan övladlarınızı bunun vətəndaşlığı olmayan şəxslərin gənclərdən dövlət çevrilişi üçün istifadə etmək cəhdi olduğuna inandırın”, - Zarkua vurğulayıb.Politoloq Nino Skvortsova bildirib ki, yerli seçkilər ölkə üçün parlament seçkiləri qədər vacib deyil, lakin ölkə daxilindəki vəziyyəti nəzərə alsaq, bu, hələ də maraq doğurur. ”Hakim ”Gürcü Arzusu” qeyd-şərtsiz qələbə qazanmaqda və təkcə parlament və hökumətdə deyil, həm də yerli özünüidarə səviyyəsində öz mövqelərini gücləndirməkdə maraqlıdır. Hakim komandanın fikrincə, bu, müxalifəti yerli səviyyədə təxribat üçün əsaslardan və ”qayığı silkələmək” imkanından məhrum edəcək. Digər tərəfdən, müxalifət bu seçkilər üçün regiona nəzarət imkanını ciddi şəkildə nəzərdən keçirir”, deyə o izah edib.Skvortsovanın fikrincə, real rəqabət yalnız regionlarda mümkündür, Tiflis isə mütləq hakim partiyanın əlində qalacaq. Eyni zamanda, ”Gürcü Arzusu”nun vəziyyəti 2021-ci ildə bəzi bələdiyyələrdə yerlərini itirdiyi ilə müqayisədə ümumilikdə yaxşıdır. ”Güclü Gürcüstan və ”Gürcüstan naminə Qaxariya” ilə bağlı proqnozlar adətən mənfi olur, çünki hesab olunur ki, hakim partiya müxalifəti xarizmatik lidersiz və ideoloji böhran vəziyyətində qoyub. Ona görə də bu tandemin uğuru yalnız seçki proqramından və partiyaların ictimai tələblərə real münasibətindən asılı olacaq. Təəssüf ki, bu gün Gürcüstan müxalifəti çox vaxt buna görə günahkardır, ona görə də hər seçki tsiklində öz fəaliyyətsizliyinin bəhrəsini alır”, - ekspert yekunlaşdırıb.

**V.VƏLİYEV**

# Türkiyə ”Mavi Vətən”in sərhədlərini yenidən cızır

*Türkiyə MİT-in rəhbəri İbrahim Kalın Benqaziyə səfər edib*

Liviya Milli Ordusunun (LMO) komandanı Xəlifə Haftar Türkiyə Milli Kəşfiyyat Təşkilatının (MİT) rəhbəri İbrahim Kalını qəbul edib. Danışıqlar Ankara ilə bir vaxtlar Afrikada təsirinin genişlənməsinə qarşı çıxan şərq Liviya hakimiyyəti arasında ilk yüksək səviyyəli təmaslar olub. Türkiyə keçmiş Cəmahiriyyənin bu hissəsində öz mövqeyini gücləndirməyə və Haftarın Şərqi Aralıq dənizində hansı təsir dairələrinin olması barədə Türkiyənin baxışını qanuniləşdirəcək dəniz sərhədləri ilə bağlı razılığa gəlməyə inandırmağa çalışır. Haftar MİT direktorunu Liviyanın şərqinin iqtisadi və hərbi paytaxtı Benqazidə qəbul edib. LMO-nun digər nümayəndələrinin iştirakı ilə keçirilən danışıqlar Türkiyə ilə Liviya arasında ikitərəfli əlaqələrin inkişafına həsr olunub. Türkiyə mediası bunu ilk təmaslar adlandırıb.

İbrahim Kalınla görüş Türkiyənin hərbi freqatının Benqazi limanına tarixi səfəri fonunda baş tutub və bu səfər zamanı tərəflər arasında hərbi səviyyədə danışıqlar aparılıb. Liviyanın şərqindəki dialoqa LMO komandanının müavini və Quru Qoşunlarının rəhbəri Səddam Haftar, Xəlifə Haftarın oğlu və onun böyük ehtimal varisi də qatılıb. LMO uzun müddət Türkiyəyə qarşı çıxmasına baxmayaraq, əsasən prezident Rəcəb Tayyib Ərdoğanın Liviyanın qərb hissəsinə rəhbərlik edən, beynəlxalq təşkilatkar və dünya birliyi tərəfindən legitim hesab edilən Tripoli rəhbərliyinə rəğbəti var idi. Bu gün Haftar və Ankara ikitərəfli əlaqələri gücləndirirlər. Aprel ayında Səddam Haftar Ankaraya səfər edib və müdafiə naziri Yaşar Gülər ilə danışıqlar aparıb. Onlar ”iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi yollarını, həmçinin qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələləri” müzakirə ediblər. Regional mediada yayılan versiyalardan birinə görə, LMO komandirinin oğlu Ankara ilə Türkiyənin bir vaxtlar müxalif düşərgəyə - Tripoliyə tədarük etdiyi türk müdafiə məhsullarının mümkün alışını müzakirə edib.



Qətərin The Middle East Eye (MEE) portalının məlumatına görə, Ankara Şərqi Liviyanı Türkiyə tərəfi ilə Tripoli arasında 2019-cu ildə bağlanmış dəniz müqaviləsini qəbul etməyə inandırır. Müqavilənin mətni əslində Yunanıstan və Kiprin Şərqi Aralıq dənizindəki bəzi müstəsna iqtisadi zonalar üzrə hüquqlarını gözardı edir və Türkiyənin bölgədəki təsir dairələrinə baxışını təsbit edir. Müqavilə layihəsini təkcə bir vaxtlar Ankaranın təsirinə qarşı çıxmaq üçün Haftarla əlaqə qurmağa çalışan Afina və Lefkoşa deyil, həm də Avropa paytaxtları pisləyir. Ola bilsin ki, Şərqi Liviya hakimiyyətinin bu layihəyə qoşulması Avropa İttifaqının tənqidinə səbəb olsun.

Versiyalardan birinə görə, Ankara Haftarla təmaslar vasitəsilə qruplaşmalar arasında toqquşmalarda boğulan Tripoliyə dolayı təzyiq göstərməyə çalışır. Bu günlərdə Tripolinin qərbində yerləşən Urşafana şəhərində Milli Razılıq Hökumətinə (MRH) sadiq 55-ci batalyonun komandiri Məmmər əd-Daviyə silahlı hücum edilib. Hərbi rəhbərin korteji naməlum silahlı qrup tərəfindən atəşə tutulub. Və bu, MRH-ə yaxın komandirlərə qarşı sui-qəsdlə bağlı ilk hadisə deyil. May ayında prezident şurasında təhlükəsizlik və sabitliyin qorunması aparatının rəhbəri Abdel Qani əl-Kikli paytaxt regionunda genişmiqyaslı toqquşmalara səbəb olan pusquda öldürülüb. Bu vəziyyətdə Liviyanın şərqində vəziyyət daha stabil və proqnozlaşdırıla bilən görünür, çünki LMO təhlükəsizlik sahəsində demək olar ki, əsas dayaqdır.

Ankara uzun müddətdir ki, Liviya vətəndaş münaqişəsinə əvvəlki birtərəfli yanaşmasını aradan qaldırmağa çalışır. Türkiyə biznesləri Misir və Əmirlik ilə birlikdə ölkənin şərqindəki layihələrdə fəal iştirak edir, Türkiyə təmsilçiləri Misirlə birlikdə LMO nümayəndələri ilə danışıqlar aparır və son vaxtlar Haftarın oğulları Türkiyə ərazisində Ankara ilə birbaşa dialoq aparırlar. Aydındır ki, belə bir strategiya regionda daha geniş manevrlər üçün məkana sahib olmaq imkanı verir. Hətta Liviyanın qərb hissəsində tamhüquqlu türk hərbi bazalarının formal yaradılması üçün şərqdən razılığın - razılaşmanın ratifikasiyasına ehtiyac var.

Mahiyyətcə özəl hərbi şirkətlər təkcə Liviyanın qərb hissəsinin təhlükəsizlik qüvvələri deyil. Keçmiş Cəmahiriyyənin şərq hissəsində təhlükəsizlik sahəsində də qüvvələr balansında problemlər var. LMO və ona rəhbərlik edənlər arasında da rəqabət var, cənub tayfalarının xüsusi mövqeyi var, Haftar onları öz tərəfinə çəkə bilib, lakin onun imkansızlığı halında özlərini tamamilə proqnozlaşdırıla bilməyəcək şəkildə apara bilərlər. Türkiyənin Liviyanın şərqindəki səhra bölgələrində layihələrə girməyə çalışması təsadüfi deyil.

**V.VƏLİYEV**

# Havalandırma sistemləri xəstəlik yaya bilərmi?



***Son illər xərçəngin yayılmasının ən mühim səbəblərindən biri kimi ofislərin havalandırma sistemi göstərilir. Böyük otellərdə, supermarketlərdə və qapalı ofislərdə işləyənlər daha çox risk altındadır. Diabet xəstələri, alkoqoliklər, yaşlılar və körpələr, kimyaterapiya alanlar, böyrək çatışmazlığı və xroniki ağciyər xəstəlikləri olan insanlar üçün süni havalandırma sistemi işləyən məkanlarda işləmək həyati risk daşıyır.***

Əslində, havalandırma sistemləri zərərli deyil; əksinə, düzgün dizayn edildikdə və saxlandıqda, daxili havanın keyfiyyətini yaxşılaşdırır. Bununla belə, qeyri-kafi ventilyasiya kif, toz, allergen və zərərli kimyəvi maddələrin yığılmasına, astma, allergiya və tənəffüs xəstəliklərinə səbəb ola bilər.

Havalandırma yaşayış, iş yerlərimizin rahatlığı və rifahında mühüm rol oynayır. Qeyri-adekvat və ya zəif havalandırma sistemi təkcə həyat keyfiyyətimizi aşağı salmır, həm də ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Ventilyasiyada keyfiyyətli hava sirkulyasiyasını təmin edən şərtlərə diqqət etmək lazımdır. Qeyri-adekvat ventilyasiya çirkli havanın içəridə yığılmasına gətirib çıxarır. Bu, tənəffüs yolu xəstəlikləri, allergiya və astma kimi problemlərə səbəb ola bilər. Toz, polen və kif kimi allergenlərin üstünlük təşkil etdiyi ərazilərdə keyfiyyətli havalandırma sistemləri xüsusilə vacibdir.

Düzgün qurulmayan havalandırma sistemi olan daxili məkanlarda karbon qazının yığılması qaçılmazdır. Bu, baş ağrısı, yorğunluq, konsentrasiyada çətinlik kimi problemlərə səbəb ola bilər.Qeyri-adekvat hava axını rütubətin artmasına və kifin böyüməsinə səbəb olur.

Normal qurulmuş ventilyasiya sistemləri ofislərin, dükan və mağazaların, ümumiyyətlə bütün qapalı məkanların havasını təmizləməklə yanaşı həm də işçilərin sağlamlığını qorumuş olur. Çünki qapalı məkanlarda istifadə edilən təmizlik məhsulları, boya və mebel kimi əşyalar zamanla özündən kimyəvi maddələr buraxır. Bu maddələr zəif havalandırma səbəbindən qapalı məkanda yığılır və xroniki sağlamlıq problemlərinə səbəb ola bilər.

Qapalı yerlərdə işləyən insanlar havadakı yad və zərərli cisimlərə daha çox məruz qalırlar. Xüsusilə ventilyasiyasının zəif olduğu ofislərdə uzun müddət işləmək astma, KOAH, koronar ürək xəstəliyi, iflic və ağciyər xərçəngi kimi xəstəliklərə yol aça bilər. Qapalı məkanlarda daha çox rastlanan PM 2.5 adlı hissəciklərə uzun müddət məruz qalmaq diabet, Alzheimer və Parkinson kimi ciddi xəstəliklərə səbəb ola bilər. Virusun ötürülməsi riskinin qarşısını almaq və məhsuldarlığı təmin etmək üçün iş yerlərində düzgün havalandırma sistemləri və onların içərisində düzgün hava filtrləri olmalıdır.

Harvard Xalq Sağlamlığı Məktəbinin (HSPH) araşdırması göstərir ki, yaxşı havalandırılan ofislərdə işləyən insanlar ilə zəif havalandırılan ofislərdə işləyən insanlardan orta hesabla iki dəfə yaxşı idrak funksiyasına malikdirlər. ABŞ-ın Harvard Universitetində aparılan araşdırmada iki həftə ərzində fərqli havalandırma sistemləri olan iki ayrı ofisdə çalışan 24 nəfər müşahidə edilib.

İştirakçıların xəbəri olmadan ofislər həm ənənəvi havalandırma sistemləri, həm də eko-yaşıl binalarda istifadə olunan sistemlərlə təchiz edilib və karbon qazının səviyyəsi ölçülüb. Tədqiqat göstərib ki, $CO_2$ səviyyəsi aşağı olan ofislərdə çalışanlar konseptual testdə 61 faiz daha yaxşı nəticə əldə ediblər.

Havalandırmanın iki növü var: təbii ventilyasiya və mexaniki ventilyasiya. Təbii ventilyasiya tanış bir üsuldur. Qapının və ya pəncərənin açılmasını nəzərdə tutan bu proses temperatur və təzyiq fərqlərinə əsaslanır. Qapalı məkanlarda mexaniki ventilyasiya sistemləri isə ən məşhur havalandırma sistemi məhsullarıdır. Mexaniki havalandırma sistemləri xarici mühitdən təmiz havanı çəkir və toz hissəciklərini və çirkləndiriciləri mexaniki olaraq xaric edir. Normal qapalı mühitdə hava həcmcə 20,9% oksigen konsentrasiyasına malikdir. Oksigen səviyyəsi həcmcə 19,5%-dən aşağı düşdükdə oksigen çatışmazlığı hesab olunur. 16% v/v-dən aşağı oksigen səviyyəsi insanlar üçün təhlükəlidir. Havalandırma sisteminin əhəmiyyəti bunun üçün diqqətə alınmalıdır.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi "istiqaməti çərçivəsində hazırlanıb*

# Ermənistanın Azərbaycanla sülhdən başqa yolu yoxdur

## Aleksandr Razuvayev: "Azərbaycan və Ermənistan arasında nəqliyyat marşrutlarının açılması bütün region ölkələri üçün faydalıdır"

***Tanınmış rusiyalı politoloq və iqtisadçı Aleksandr Razuvayev Ermənistan baş nazirinin Azərbaycanla yekun sülhün yaradılması istiqamətində atdığı addımları "Moskva-Baku" portalı üçün şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

- Aleksandr Yuryeviç, bu yaxınlarda Ermənistanın Müstəqillik Bəyannaməsinin imzalanmasının ildönümündə baş nazir Nikol Paşinyan xalqa müraciət edərək bəyan etdi ki, Bəyannamənin əsas ideoloji müddəaları ziddiyyət təşkil edir və orada "Ermənistan Respublikası və Dağlıq Qarabağın yenidən birləşdirilməsi" tezisinin qeyd olunmasına toxunur. Paşinyan müraciətində açıq şəkildə bildirib ki, Azərbaycanla sülh əldə etmək üçün bu sənədə düzəlişlər edilməlidir. Ermənistan hökumətinin başçısı bəyan edib ki, Ermənistanın Konstitusiya Məhkəməsi Azərbaycanla sülh sazişini Konstitusiyaya zidd hesab edərsə, o, şəxsən konstitusiyaya dəyişikliklərin təşəbbüskarı olacaq. Bunu necə şərh edə bilərsiniz?

- Paşinyan ardıcıl olaraq Azərbaycanla yekun sülhün bərqərar olmasına doğru irəliləyir. Ermənistan Konstitusiyasına respublikanın Müstəqillik Bəyannaməsinə (bu sənəd Azərbaycana qarşı ərazi iddialarını ehtiva edir) istinadla düzəlişlər edilməsi Bakının İrəvanla sülh müqaviləsi imzalaması üçün tələbidir.

Konstitusiya ölkənin əsas qanunudur. Nə qədər ki, başqa dövlətə, xüsusən də Azərbaycana ərazi iddiaları var, Bakı sakit ola bilməz, gələcəkdə Ermənistanda hakimiyyətə gələ biləcək qüvvələrin Konstitusiyada qeyd olunan bu ərazi iddiasından istifadə edərək yenidən Qarabağa iddia qaldırmağa cəhd etməyəcəyinə heç kim zəmanət verə bilməz. Əgər bu iddia ölkənin əsas qanununda qalarsa, bu, Ermənistanın bu əraziyə iddialı olması demək olacaq. Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin qəti şəkildə bərqərar olması üçün ərazi iddiasının istisna etmək lazımdır.

Təbii ki, Paşinyan artıq əhalini açıq şəkildə buna hazırlayır ki, Azərbaycanla sülh (hətta Ermənistanın baş nazirinin vurğuladığı kimi, Ermənistan cəmiyyəti üçün bunu qəbul etmək çətin olsa belə) gələcəkdir və bu, qaçılmazdır. Bununla bağlı Ermənistan hökumətinin başçısı açıq şəkildə bildirdi ki, Azərbaycanla sülhə nail olmaq üçün Bəyannaməni dəyişdirmək lazımdır. O, yenə Qarabağ məsələsinin bağlandığını bildirdi.



Nə deyilsə də, Nikol Paşinyan bu gün Ermənistanda kifayət qədər nüfuzludur. O, əslində yaxşı psixoloq və manipulyatordur. Məsələn, bu yaxınlarda onun siyasəti əhalini qane etməsə, inqilab etməyi təklif edib. Yəni belə bir manipulyatordur. Və bu, həqiqətən işləyir.

O, əhalini yeni reallığa hazırlayır. Ermənistanın baş naziri hamı ilə ticarət etmək, normal xarici iqtisadi əlaqələr qurmaq istəyir. O, bu yaxınlarda bəyan edib ki, biznes mühitini yaxşılaşdırmaq üçün bütün qonşu dövlətlərlə sərhədləri açdıqdan sonra sadələşdirilmiş sərhəd yoxlamaları aparmaq niyyətindədir. Ermənistanın baş naziri əlverişli şərtlərlə ticarət etmək istəyir. Bunu Ermənistanın KTMT üzvlüyünü dondurması və Avrasiya İqtisadi İttifaqından çıxmağı planlaşdırmaması da təsdiqləyir. Bu da başa düşüləndir, çünki Rusiya Ermənistan Respublikası üçün mühüm iqtisadi partnyordur.

Ermənistanla Azərbaycan arasında münaqişənin sona çatması artıq müdafiə xərclərinin azalmasına gətirib çıxarır. Ən azından Paşinyan ötən həftə 2026-cı ilin dövlət büdcəsinində hərbi xərcləri artırmayacaqlarını ya da çox az artıracaqlarını bildirib. Bu o deməkdir ki, Ermənistanda bu pullar sosial siyasətə yönəldilə bilər, bu, xalq üçün, ölkə üçün vacibdir. Müdafiəyə çox pul xərcləyən istənilən dövlət öz iqtisadiyyatını riskə atır. İqtisadiyyat uzunmüddətli perspektivdə müdafiənin böyük bir hissəsinə tab gətirə bilməz.

Üstəlik, müxalifət Paşinyanın addımlarına heç bir ciddi əməllə cavab vermir. Bu o deməkdir ki, müxalifət əhaliyə onlara yaraşmayan gündəmi təklif edir. Müxalifətin illərdir təklif etdiyi gündəm xalqla rezonans doğurmur, o, öz faydalılığını keçib, əməli baxımdan real deyil. Yaxşı, müxalifət qüvvələri hakimiyyətə gəlsəydilər, nə təklif edərdilər- Azərbaycana müharibə elan edib Qarabağı yenidən işğal etməyə? Ermənistan üçün bu, çox tez və çox acınacaqlı şəkildə bitəcəkdi. Cəsarətli olmaq lazımdır- məsuliyyət götürmək. Sanki Ukraynada müharibəni davam etdirməyə çağıran Fransa prezidenti Makron və italyan siyasətçiləri vətəndaşlardan şəxsən əlinə silah alıb müharibəyə getməyi xahiş edirlər.

Erməni xalqı yaxşı həyat səviyyəsini əldə etmək istəyir. Müharibə isə Ermənistan xalqı üçün prioritet deyil, çünki əhali başa düşür ki, belə müharibədə insanlar həlak olacaq, amma heç cür qalib gəlməyəcək. Və başa düşürlər ki, bunu etməyə dəyməz. Bu da erməni cəmiyyətində millətçiliyin dərəcəsinin müəyyən qədər azalmasından xəbər verir. 30 il əvvəl Ermənistanda çox ciddi dərəcədə millətçilik var idi. İndi də bu millətçilik birtəhər sönüb. Statistika İkinci Qarabağ müharibəsi zamanı fərarilərin çoxluğunu göstərir. Düşünürəm ki, bu gün Ermənistanda insanlar Paşinyandan onun nə etdiyini gözləyirlər.

Paşinyan haqqında nə düşünürlərsə düşünsünlər, o, "biz heç kimlə döyüşmək istəmirik, varlanmaq istəyirik" prinsipləri ilə yaşayan müstəqil dövlət yaratmağa çalışır. Bu yaxşıdır, bu əladır. Adətən yaşayış səviyyəsi ən yüksək olan ölkə qalib gələn ölkə olur. Bu, normal dünyanın əsasıdır.

Eyni zamanda, Ermənistanın gələcəkdə NATO və ya Aİ-yə daxil olması ehtimalı azdır. Çox güman ki, respublika adi, zəngin yox, çox da kasıb olmayan ölkə olacaq. Ermənistanın Rusiyadan tamamilə qopması ilə bağlı bütün hekayələrə baxmayaraq, bunun baş verəcəyini düşünmürəm. Bu, Paşinyan üçün xüsusilə sərfəli deyil. O, şəraitə uyğun hərəkət edəcək. Rusiya baş nazirinin müavini Overçuk müntəzəm olaraq nə deyir? Ermənistan Aİ-yə daxil olarsa, AİI-də ola bilməyəcək. Paşinyanın dediyi o oldu ki, Ermənistanın Aİ-yə daxil olması müddəti 20 ilə yaxındır. Və bu müddət ərzində Avropa dəyişə bilər, dünya da bu müddət ərzində dəyişə bilər. Biz indi görürük ki, Ermənistan hakimiyyəti Rusiyaya diqqətini necə çox fəal şəkildə nümayiş etdirir. Paşinyan Vaşinqtonda Əliyev və Trampla görüşündən sonra Putinə zəng vurur, Ermənistan Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu ilə görüş barədə məlumat paylaşır və s.

Zəngəzur dəhlizi kommersiya layihəsidir. Və guya səhmlər olacaq və onlar müxtəlif ölkələrdən olan investorlara satılacaq. Paşinyan bildirib ki, Rusiya Qafqazda nəqliyyat layihələrində iştirak edə bilər. İştirak Kremlə İrəvandan bir növ kompensasiyadır. Türkiyə Zəngəzur dəhlizinin özünə məxsus hissəsinin tikintisinə başlayıb. Ona görə də ümid edirəm ki, Cənubi Qafqazda normal iqtisadi həyat olacaq, ticarət olacaq, daha müharibələr olmayacaq. Və ümumiyyətlə, bölgə qaynar nöqtə kimi hamı üçün məqbul şərtlərlə bitəcək və bitəcək.

Biz görürük ki, həm Rusiya, həm də Azərbaycan ikitərəfli münasibətlərdə müsbət siqnallar verir. Bu günlərdə iki ölkənin baş nazirinin müavinlərinin həmsədrliyi ilə iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası keçirilib. Tərəflər onun nəticələrini müsbət qiymətləndirirlər. Bu həm də Zaqafqaziyanın gələcəyi üçün yaxşıdır. Mən bazara, iqtisadiyyata inanıram. Bunu Rusiya ilə Azərbaycan arasındakı münasibətlərdə mövcud tendensiyalar nümayiş etdirir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
28 avqust
2025-ci il

# "İT sahəsində kadr çatışmazlığı problemdir"

*TEXNOLOQ AÇIQLADI*




"Azərbaycanda İT sektorunun inkişafı əlbəttə ki, mövcuddur. Məsələn, genişzolaqlı internet sahəsində son illərdə böyük işlər görülüb və əhəmiyyətli nailiyyətlər əldə olunub. İnternetin sürəti artıb və bu, beynəlxalq reytinqlərdə də əksini tapıb". Bu sözləri SİA-ya açıqlamasında İKT İnformasiya Mərkəzinin direktoru Fərid Kazımov deyib.



Onun sözlərinə görə, bununla yanaşı, elektron hökumət sahəsində də davamlı inkişaf müşahidə olunur. Hazırda dörd əsas həyat hadisəsi üzrə xidmətlər tam elektronlaşdırılıb: "Vətəndaşlar şəxsiyyətlərini elektron formada təsdiqləməklə müxtəlif sənədləri onlayn şəkildə əldə edə bilirlər.

Amma problemlər də var. Qeyd olunmalıdır ki, İT sahəsində kadr çatışmazlığı ciddi problemdir. Yerli kadrlara tələbat böyükdür, amma səviyyə aşağı olduğuna görə daha ixtisaslı mütəxəssislər xaricdən daha yüksək maaşla cəlb olunmağa çalışılır. Bu da həm dövlət qurumlarının, həm də şirkətlərin xərclərini artırır.

Bu problemi həll etmək üçün universitetlərdə tədris proqramları (syllabus) təkmilləşdirilməli, müasir tələblərə cavab verən kadr hazırlığı həyata keçirilməlidir. Bu istiqamətdə müəyyən addımlar atılıb, Rəqəmsal İnkişaf Nazirliyi və Təhsil Nazirliyi bu sahədə əməkdaşlıq edir və nəticələrini yaxın illərdə görəcəyik.

Digər problem - İT məhsullarının ixracı zəifdir. Azərbaycanda İT məhsullarının ixrac həcmi qonşu ölkələrlə müqayisədə çox aşağıdır. Bu səbəbdən İT bizneslərinin gəlirləri də yüksək olmur, bu isə onların inkişafını məhdudlaşdırır. Dövlət bu sahəyə dəstək verir - məsələn, "Yüksək Texnologiyalar Parkı" rezidentlərinə 10 il müddətinə vergi güzəştləri tətbiq olunur. Bu, şirkətlərə 30-50% arası daha çox gəlir əldə etməyə imkan verir və həmin gəlirlər inkişaf üçün istifadə oluna bilər.

Başqa bir çətinlik - Azərbaycanın İT brendi beynəlxalq səviyyədə tanınmır. Bu istiqamətdə səfirliklərə də böyük məsuliyyət düşür. Onlar ya öz komandaları ilə, ya da əlavə texnoloji müşavirlər cəlb etməklə xarici ölkələrdə Azərbaycan İT brendinin tanıdılmasını təmin etməlidirlər. Azərbaycan şirkətlərinin yeni bazarlara çıxışı təşviq olunmalıdır.

Həmçinin, dövlət qurumları və özəl sektor birlikdə işləməlidirlər. İT məhsullarının ixracını artırmaq üçün birgə komissiya və ya işçi qruplar yaradılmalı, konkret strategiyalar hazırlanmalıdır.

Kadr axını da ciddi problemdir. Yüksək ixtisaslı mütəxəssislər xaricə gedirlər. Onsuz da İT sahəsində kadr azlığı var, bu axın vəziyyəti daha da çətinləşdirir. Halbuki İT sektoru əsasən insan kapitalına əsaslanır. Ona görə də bu sahədə mütəxəssislərin sayını artırmaq və onları ölkədə saxlamaq üçün tədbirlər görülməlidir.

Sonda isə, Azərbaycanda startap ekosistemi zəif inkişaf edib. Qonşu ölkələrlə müqayisədə Azərbaycanda dövlətin startaplara ayırdığı maliyyə vəsaiti dəfələrlə azdır. Əgər biz də milyard dollarlıq startaplar görmək istəyiriksə, bu sahəyə həm dövlət, həm də özəl sektor tərəfindən ciddi investisiyalar qoyulmalıdır. Təəssüf ki, binaların tikintisinə böyük pullar xərclənir, amma rəqəmsal məhsullara və innovasiyalara o qədər maraq göstərilmir. Bu sahədə təşviqlərin artırılması və investisiya cəlbi çox vacibdir".

*Günel Fərzəliyeva*



## Sabah 39 dərəcə isti olacaq - PROQNOZ

Azərbaycanda avqustun 28-də 39 dərəcə isti olacağı gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək.Havanın temperaturu gecə 20-24, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət isə gecə 70-75 %, gündüz 45-55 % təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər Lənkəran-Astara zonasının bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 22-26, gündüz 34-39, dağlarda gecə 12-17, gündüz 24-29 dərəcə isti olacaq.

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "Araz-Naxçıvan" UEFA Çempionlar Liqasının ilkin mərhələsində mübarizəyə start verəcək



"Araz-Naxçıvan" klubu futzal üzrə UEFA Çempionlar Liqasının ilkin mərhələsində bu gün mübarizəyə start verəcək. SİA-nın məlumatına görə, Azərbaycan çempionu Şimali İrlandiya təmsilçisi "Sparta Belfast"la qarşılaşacaq.

Avstriyanın Linz şəhərindəki NMS İdman Sarayında baş tutacaq görüşə Bakı vaxtı ilə saat 19:00-da start veriləcək.

Matçı Qonçalo Felipe Santos Duarte (Portuqaliya), Orest Dutsiak (Ukrayna) və Vladimir Sebek (Monteneqro) idarə edəcəklər.

Qeyd edək ki, "Araz-Naxçıvan"ın yer aldığı qrupun oyunları Linz şəhərində keçiriləcək. Komanda sabah Şotlandiyanın "PYF Saltires", avqustun 30-da isə yerli "Ljuti Krajişniçi" klubu ilə üz-üzə gələcək.

## Tərtərdə cinayət əməllərində şübhəli bilinən şəxslər saxlanılıblar



Tərtər Rayon Polis Şöbəsinə Ağdərə rayonunun Suqovuşan qəsəbəsi və Talış kəndinin ərazisindən dövlət əmlakı olan dəmir boru və toxuma torların oğurlanması barədə məlumat daxil olub. SİA-ya DİN Mətbuat Xidməti Bərdə regional qrupundan bildirib ki, polis əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində əməli törətməkdə şübhəli bilinən 42 yaşlı Xəyal Nəsirov saxlanılıb. Onun yaşadığı ünvandan 471 ədəd dəmir boru və 46 top toxuma maddi sübut kimi götürülüb.

Bundan başqa, polis əməkdaşlarının narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyasına qarşı keçirdiyi tədbirlər nəticəsində 54 yaşlı Firdovsi Həsənov saxlanılıb. Yaşadığı ünvana baxış zamanı oradan aqrotexniki qaydada dibçəklərdə yetişdirilən çətənə bitkiləri aşkarlanıb.

Faktlarla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000